www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

# "Heydər Əliyev- 90"

## Elmi-kütləvi məqalələr toplusu

Kitab Yeni Yazarlar və Sənətçilər Qurumu ilə YYSQ Gəncə bölümünün rəhbəri Nurlan Quliyevanın təşəbbüsü, Göygöl Rayon Təhsil Şöbəsinin təşkilati, www.kitabxana.net - Milli Virtual Kitabxananın informasiya dəstəyilə bölgə müəllim və şagirdlər arasında keçirilmiş "Heydər Əliyev məktəbi" adlı müsabiqədə qalib gəlmiş məqalələr əsasında hazırlanmış və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuşdur.

**E-kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb.**

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-

2013

YENI YAZARLAR VƏ SƏNƏTÇİLƏR QURUMU.
E-NƏSR N01 (50 - 2013

# HEYDƏR ƏLİYEV MƏKTƏBİ




NURLAN QULİYEVA

*Kitab Yeni Yazarlar və Sənətçilər Qurumu ilə YYSQ Gəncə bölümünün rəhbəri Nurlan Quliyevanın təşəbbüsü, Göygöl Rayon Təhsil Şöbəsinin təşkilati, www.kitabxana.net - Milli Virtual Kitabxananın informasiya dəstəyilə bölgə müəllim və şagirdlər arasında keçirilmiş "Heydər Əliyev məktəbi" adlı müsabiqədə qalib gəlmiş məqalələr əsasında hazırlanmış və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuşdur.*

**Bakı – 2013**

www.kitabxana.net

Milli Virtual Kitabxananın təqdimatında

# “Heydər Əliyev məktəbi”

## Elmi-kütləvi məqalələr toplusu

**Bu elektron nəşr Yeni Yazarlar və Sənətçilər Qurumuyla http://www.kitabxana.net - Milli Virtual Kitabxananın Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyilə gerçəkləşdirdiyi, Ümummilli liderimiz Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş, “Öndərin yadigarı – intellektual-kreativ Azərbaycanımızı sevək…” şüarı altında keçirilən XIII Bakı Kitab Bayramı – Kulturoloji Tədbirlər Silsiləsi çərçivəsində gercəkləşdirilən Müsabiqə və kulturoloji-innovativ layihə çərçivəsində nəşrə hazırlanıb, yayılır.**

**Elektron Kitab N 01 (50 – 2013)**

**Kulturoloji layihənin maliyyələşdirən qurum:**

**Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi:**
**http://mys.gov.az**

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

***YENI YAZARLAR VƏ SƏNƏTÇILƏR QURUMU***
***ASSOCIATION OF NEW WRITERS AND ARTIST***

*"**İntellektual, Kulturoloji** və Bədii Ədəbiyyat Kitabxanası"* ***№ 07***

**Redaksiya heyəti:** Elçin Əfəndiyev, Nizami Cəfərov (sədr), Çingiz Əlioğlu, Nizaməddin Şəmsizadə, Aydın Xan (Əbilov) (məsul redaktor), Arif Əmrahoğlu, Azər Turan, Bəsti Əlibəyli (məsul katib), Elçin Hüseynbəyli, Səlim Babullaoğlu

**Bədii redaktor:** Aydın Xan (Əbilov), yazıçı-kulturoloq
**Korrektor:** Günay Şıxəliyeva

**Nurlan Quliyeva. «HEYDƏR ƏLİYEV MƏKTƏBİ»,** ***Bakı-2013***

**İnsanlar var tarixə yazılır, insanlar var tarix yazır. Kitab xalqının dövlətçilik salnaməsini yazmış, həyatını vətəninin azadlığına, bütövlüyünə, iqtisadi-mədəni inkişafına həsr etmiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuşdur.**

**"Heydər Əliyev məktəbi" adlı kitab gözəl ailə başçısı, dahi İnsan və görkəmli siyasətçi Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini dünya ictimaiyyətinə çatdırmaq üçün nəzərdə tutulmuşdur.**

©YYSQ – "İKBƏK" seriyası - 2013

# Heydər Əliyev məktəbi” mövzusunda müsabiqə keçirilməsi haqqında

## ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 yanvar 2013-cü il tarixli 2679 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının 1-ci bəndinin (*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş elmi konfrans və simpoziumların, müsabiqələrin, musiqi festivallarının, srgilərin və idman yarışlarının keçirilməsi*) icrasının təmin edilməsi.

1.2. Bu Əsasnamə müəllim və şagirdlər arasında **“Heydər Əliyev məktəbi”** mövzusunda müsabiqə keçirilməsi qaydalarını müəyyən edir.

1.3. Müsabiqə Yeni Yazarlar və Sənətçilər Qurumunun İdarə Heyətinin üzvü, Gəncə bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Quliyeva Nurlanın təşəbbüsü ilə həyata keçirilir. Təşkilatçı Göygöl Rayon Təhsil Şöbəsi, İnformasiya dəstəyi: www.kitabxana.net - Milli Virtual Kitabxanadır.

## 2. Müsabiqənin əsas məqsəd və vəzifələri

2.1. ***Əsas məqsəd*** – ölkədə Heydər Əliyev haqqında fikir və təfəkkürlərinin genişləndirilməsi, Heydər Əliyev siyasi irsinin gələcək nəsillərə aşılanması.

2.2. ***Əsas vəzifələr:***

- Heydər Əliyev irsini müəllim və şagirdlər arasında təbliğ etmək;
- Yeni nəsil arasında Heydər Əliyev haqqında məlumatlandırmanı artırmaq;
- Heydər Əliyev irsini müəllim və şagirdlər vasitəsi ilə cəmiyyətdə təbliğini təskil etmək.

## 3. Müsabiqənin təşkili və keçirilməsi qaydaları

3.1. Müsabiqənin təşkili və keçirilməsi ilə bağlı əlaqələndirmə Göygöl Rayon Təhsil Şöbəsi və Göygöl rayon Ə.Məmmədov adına Üçtəpə kənd tam orta məktəbin müəllimi Quliyeva Nurlan tərəfindən həyata keçirilir.

## 4. İştirak qaydaları

4.1. Müsabiqədə müəllim və şagirdlər iştirak edə bilərlər.

4.2. Müsabiqədə iştirak etmək istəyənlər Azərbaycan Respublikasının Göygöl Rayon Təhsil Şöbəsinə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- pedaqoji məqalələr və ya esse yazı;

- tərcümeyi hal;
- şəxsiyyət vəsiqəsi və ya onu əvəz edən sənədin sürəti.

(Internetlə təqdim olunan işlər quliyevanurlan@gmail.com e-poçt ünvanına göndərilməlidir).

## 5. Qaliblərin müəyyən edilməsi

5.1. Qaliblərin müəyyən edilməsi üç mərhələdə keçirilir.

1) Məktəb ən yaxşı müəllim və şagird işini müəyyənləşdirib Göygöl Rayon Təhsil şöbəsinə təqdim edir.

2) Göygöl Rayon Təhsil Şöbəsində yaradılmış komissiya işləri nəzərdən keçirir. Seçilmiş işlər Yeni Yazarlar və Sənətçilər Qurumuna təqdim olunur

(Internetlə təqdim olunan işlər quliyevanurlan@gmail.com e-poçt ünvanına göndərilməlidir).

3) Yeni Yazarlar və Sənətçilər Qurumunun idarə heyyəti ən yaxşı on işi seçir.

5.2. Qaliblər müəyyən edilərəkən təqdim edilmiş pedaqoji işlərin və esselərin elmi cəhətdən kifayət qədər əsaslandırılmasına, istifadə edilmiş ədəbiyyatın və mənbələrin siyahısının dəqiq göstərilməsinə, eyni zamanda məlumatların düzgünlüyünə xüsusi diqqət yetiriləcəkdir.

## 6. Müsabiqənin qaliblərin mükafatlandrılması

6.1. Müsabiqə Yeni Yazarlar və Sənətçilər Qurumunun İdarə Heyətinin üzvü, Gəncə bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Quliyeva Nurlanın  təşəbbüsü ilə həyata keçirilir. İnformasiya dəstəyi: www.kitabxana.net - Milli Virtual Kitabxanadır.

6.2. Müsabiqədə  ilk 10 yerləri tutan işlər YYSQ - Milli Virtual Kitabxana tərəfindən elektron nəşr olunacaqdır.

Məqalələr və esselər araşdırma xarakterli olmalı, 12 ölçülü Times New Roman şriftində, 8-9 min çap işarəsi həcmində təqdim edilməlidir.

Müsabiqəyə bu vaxtədək dərc olunmamış yazılar qəbul olunur.

Məqalələr16 aprel 2013-cü il tarixindən 30 aprel 2013-cü il tarixinədək Göygöl Rayon Təhsil Şöbəsinə çap vərəqində və elektron variantda təqdim edilməli və ya quliyevanurlan@gmail.com e-poçtuna göndərilməlidir.

Yeni Yazarlar və Sənətçilər Qurumu



# M Ə Q A L Ə L Ə R

# HEYDƏR ƏLİYEV: RUHU - MİLLİ VARLIĞIMIZ, MƏZARI - AND YERİMİZ

# (ULU ÖNDƏR HAQQINDA SİYASİ-KULTUROLOJİ ELEGİYA)

Hər zaman belədir: tarixi müəyyən edən böyük şəxsiyyətlərin fiziki yoxluğu - dünyalarını dəyişmələri heç də onların ölümü hesab olunmur. Xalqımızın böyük mütəfəkirlərinin - Dədə Qorqudun, Nizaminin, Füzulinin, Şah İsmayıl Xətainin və başqa tarixi şəxsiyyətlərin fiziki yoxluğundan zəmanəmizi illər, əsrlər ayırsa da, onlar həmişə bizimlədir və milli ruhumuz yaşadıqca, tarix yaratmış o insanların varlığını həmişə hiss edəcəyik.

Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi ƏN BÖYÜK ŞƏXSİYYƏTLƏRDƏN BİRİ, sözsüz, millətimizin fəxri, ümummilli lider, görkəmli siyasi və dövlət xadimi, dərin zəkaya, ensiklopedik intellektə, titanik bacarığa malik, eyni zamanda, çağdaş milli dövlətçiliyimizin banisi - dünyanın nüfuzlu siyasətşünaslarının, politoloqlarının Azərbaycan Respublikasının memarı hesablanan HEYDƏR ƏLİRZA oğlu ƏLİYEV idi.

Artıq dörd ildir ki, bu böyük şəxsiyyətin fiziki yoxluğu kimi böyük bir kədəri qəlbimizdə gəzdirsək də, Heydər

Əliyev mənən həmişə bizimlədir. Bu, əslində, ümumxalq sevginin təzahürüdür: Heydər Əliyev dünyasını dəyişən zaman xalqımız özünün sevimli övladı - milli lideri ilə fiziki vida mərasimində nümayiş etdirdiyi dərin hüzn, göz yaşları o dəruni duyğuların əyani sübutuydu. BÖYÜK AND YERİMİZƏ çevrilmiş və tez-tez ziyarət etdiyimiz Fəxri Xiyabandakı bu dahi insanın məzarına hər gün ardı-arası kəsilməyən insan seli böyük sevginin rəmzi də sayıla bilər.

Heydər Əliyevin qurub-yaratdığı Azərbaycan, əlbəttə, onun fiziki yoxluğuna öyrəşə bilmir. İndi də xalqımız özünün bu böyük övladını xatırlayanda, ona “Sevimli Prezidentimiz”, “Əziz Ümummilli Liderimiz”, “Böyük Öndərimiz”, - deyə ehtiram və sevgi ilə müraciət edir. Bəli, bu, xalq sevgisini - ümumxalq məhəbbəti Heydər Əliyev özünün əsrlərə sığmayan şərəfli ömür yoluyla, həyata keçirtdiyi nəhəng işləriylə, bir sözlə, saf amalı və böyük xidmətləri ilə qazana bilmişdir.

...İstənilən xalqın tarixində elə maraqlı və mürəkkəb dövrə rast gəlinir ki, toplumun o taleyüklü anında güclü şəxsiyyətə, intellektual düşüncə sahibinə, milli liderə, dövlət xadiminə böyük ehtiyac duyulur. XX əsrdə millətimizin taleyinə, son üç-dörd onilliyin gedişatına nəzər salanda, ilk əvvəl çağdaş Azərbaycanın inkişafında böyük xidmətləri olan, xalqımızın yaddaşına silinməz iz qoyan, milli dövlətçilik hərəkatının başında duran böyük lider, Dünya Azərbaycanlılarının

Ümummilli Öndəri Heydər Əliyevin həyat və fəaliyyəti gözümüzün önünə gəlir. Günlər keçdikcə, aylar ötükcə, Heydər Əliyevin millətimizin tarixində necə böyük bir rol oynadığını aydınca görmək mümkündür.

Xalqımızın və müstəqil dövlətimizin dünya iqtisadi-siyasi sistemində, millətlər ailəsində özünəlayiq yer tutmasındakı rolunu işıqlandırmaq qeyri-mümkün olsa da, tariximizdə bu böyük insanın rolunu ölçmək qeyri-mümkündür. Dünya olaylarının Azərbaycana mənfi təsirini minimuma endirilməsindən tutmuş, ta qlobal beynəlxalq proseslərin müsbət təsirlərinin daha da gücləndirilməsinədək qədər bir-birilə sıx əlaqədə olan sistemli ictimai-mədəni, iqtisadi-siyasi gedişlərdə böyük siyasətçi, nəhəng dövlət xadimi kimi Heydər Əliyevin rolu danılmazdır.

Azərbaycan tarixində son yarım əsrdə böyük hadisələrin əsas iştirakçısı kimi böyük bir tarixi şəxsiyyət - Prezident Heydər Əliyevin həyat və yaradıcılığı, şəxsiyyət kimi gördüyü tarixi xidmətləri hələ neçə-neçə yüzil tədqiqatçıların, tarixçilərin, alimlərin, siyasətşünasların və kulturoloqların araşdırma predmeti, tədqiqat obyekti olacaq.

Heydər Əliyevin tarixi missiyasının ən böyük uğuru sayılan müstəqil Azərbaycan dövlətinin get-gedə güclənməsinin əsas səbəblərini araşdırarkən, yadımıza bu böyük tarixi simanın bütün sahələrdə - milli-mənəvi

sahədəki işlərindən tutmuş, dövlət quruculuğundakı rəhbərliyi, iqtisadi tərəqqidəki zəhməti, sosial sabitlik və demokratik cəmiyyətin formalaşmasındakı rolu, elm, təhsil, incəsənət, ədəbiyyat, ümumiləşdirsək, mədəniyyətımızın inkişafındakı xidmətlərini əhatə edən ömür yolunun xüsusi dəyəri göz önünə gəlir.

Bu mənada Heydər Əliyevi tək-tük tarixi şəxsiyyətlə müqayisə edə bilərik. Millətimizin tarixində iki dahi şəxsiyyətin böyük rolu var: Şah İsmayıl Xətai və Heydər Əliyev. Bütün ömrünü Azərbaycanın milli dövlətçilik təfəkkürünün formalaşmasın sərf etmiş, şüurlu həyatını ictimai-siyasi, iqtisadi-sosial, elmi-mədəni inkişafına əvəzsiz xidmət göstərmiş, tariximizdə müstəqil, qüdrətli dövlətin quruculari, xilaskarları məhz bu iki milli lider olub.

Böyük xalqımız bəşəri inkişafın müxtəlif dövrlərində - imperiyalar dəbdə olanda Xətaiyə, demokratik sivil dövlətə ehtiyac duyulanda isə Heydər Əliyevə arxalanıb və dayaq durub. Azərbaycan Respublikasının vətəndaşları və dünyanın hər yerinə səpələnmiş 40 milyondan çox soydaşlarımız Xətaini ehtiramla yad etdikləri kimi, ümummilli liderimiz tək qəbul etdikləri və sevdikləri Heydər Əliyev özündən sonra qoyub getdiyi Böyük Milli-mədəni yolun, Dövlətçilik Kursunun ətrafında birləşir.

XX əsrin müəyyən dövründə - 1969-cü ildən başlayaraq kiçik fasilələrlə respublikamıza rəhbərlik etmiş, lakin həmişə ümummilli liderimiz kimi güvəndiyimiz Heydər Əliyev hələ keçmiş SSRİ adlanan nəhəng bir dövlətin içində Azərbaycanı əriyib itməkdən qoruya bilmiş, çağdaş müstəqil Azərbaycan Respublikasının bünövrəsini möhkəmləndirmişdir. Məhz bu uzaqgörən ümummilli liderin gərgin səyi nəticəsində, böyük çəinliklə də olsa, bir çox dəhşətli hadisələrin qarşısı alındı: Azərbaycanda nə total repressiyalar, nə də kütləvi mühacirət baş verdi. Əksinə, İranda - Güney Azərbaycanda yaşayan soydaşlarımız şimala - Bakıya üz tuturdular.

Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən dövlət müstəqilliyimiz üçün ciddi işlər görən Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq qəbul edilən odövrkü konstitutusiyamızda dövlət dili kimi məhz Azərbaycan dili qeyd olundu. Heydər Əliyev yalnız bu faktla da öz adını qızıl hərflərlə tariximizə həkk etmişdir.

Azərbaycan tarixinin dönüş nöqtəsində - 1993-cü ildə yenidən ölkəmizin rəhbərliyinə qayıtmağa məcbur olan bu güclü lider - Heydər Əliyev özünün İntellektual Siyasi-Fəlsəfi Dövlətçilik Məktəbini yaratdı, xalqımızın təkidi ilə Müstəqil Respublikamıza yenidən rəhbərlik etməyə başladı.

İlk illərdə Azərbaycan - Heydər Əliyevin böyütdüyü şıltaq övlada bənzəyirdi. Övladının ən çətin anlarında isə arxalandığı yeganə qüvvə Atadır. Azərbaycanın güvəndiyi Ata isə məhz Heydər Əliyev oldu: əbəs yerə xalqımız onu Heydər baba, Millət Atası adlandırmır.

Xalqın yaddaşı, millətin mövqeyi isə heç vaxt aldatmaz. Millətimizin, mədəniyyətimizin böyük hamisinin rəhbərliyi ilə respublikamızda  başlayan, beynəlxalq sivil dəyərlərə söykənən azad vətəndaş cəmiyyəti - demokratik dövlət quruculuğu prosesi günü-gündən genişlənir, Heydər Əliyev siyasi-fəlsəfi dövlətçilik yolun ən layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən peşəkarcasına bacarıqla inkişaf etdirilir: siyasət, iqtisadiyyat, biznes və başqa sahələrində aparılan islahatlarla yanaşı, mənəviyyat, mədəniyyət, incəsənət və ədəbiyyatla bağlı respublikamızda böyük işlər görülür.

Qloballaşmağa döğru sürət götürmüş müasir dünyada baş verən  böyük olaylar, xüsusən də mədəniyyətlərin inteqrasiyası pərdəsi arxasında intellekt və milli dünyagörüşlərin yarışı, bəlkə də savaşı zamanı zəif mədəniyyətə və ədəbiyyata malik xalqların yeri son sıradadır. Heydər Əliyevın uzaqgörən intuisiyası hələ XX əsrin ikinci yarısından xalqımızı bu böyük yarışa layiqincə hazırlaşmağa başlamışdır. Yaxın keçmişimişə boylansaq görərik ki, hələ Sovetlər Birliyi tərkibində

olanda Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə müstəqil milli mədəniyyət siyasəti aparılırdı.

Ötən əsrin 60-70-80-cı illərində çoxlu mədəni-kütləvi obyektlər, mədəniyyət sarayları tikilir, istər respublika daxilində, istərsə də ittifaq mərkəzində yerləşən ali təhsil ocaqlarında çoxlu istedadlı, intellektual mütəxəssislər hazırlanırdı. Milli mədəniyyətin və ədəbiyatın, sənətin müxtəlif sahələrinin intibah dövrü sayıla biləcək o illərdə yaranan mədəni-mənəvi irs bu gün də xalqımızın əsl intellektual sərvətini təşkil edir. Lakin indi yeni dünyada bir çox dəyərlər dəyişilmiş, dövrün tələblərinə uyun forma və məzmun rəngarəngliyi meydana çıxmışdır. Bu baxımından da ölkəmizdə aparılan və qloballaşma dövrünün tələblərinə cavab verən düzgün siyasət məhz Ümummilli Liderin vaxtında başlanmışdır, indi də davam etdirilir.

Heydər Əliyevin başladığı və indi də davam etdirilən böyük siyasət öz növbəsində Müstəqil Respublikamızın dirçəlməsinə, inkişafına və yeni-yeni uğurların əldə edilməsinə təkan verir. Ölkəmizdə və yerləşdiyimiz regionda baş verən qlobal olaylar isə bizdə inam yaradır ki, yaxın gələcəkdə Azərbaycan nəinki Şərqdə, həm də Qərbdə - Avropada rəqabətə davamlı bir dövlətə çevrilir. Son iqtisadi-siyasi hadisələr, ölkə daxilində və beynəlxalq aləmdə qazanılan böyük uğurlar isə sübut edir ki, bu yol bu günümüzün və gəlcəyimizin əsl təməlini təşkil edir.

Böyük Öndər vaxtında hiss etmişdi ki, çağdaş dünyada gedən bütün qlobal proseslərdə planetin sivil bir bölgəsi olaraq Azərbaycan bu və digər formada iştirak etməsə, yaxın gələcəkdə bir millət kimi yer üzündən silinəcəyik: necə ki, antiterror koalisiyasının fəal üzvü kimi ölkəmiz Əfqanıstanda, İraqda bəşəriyyəti böyük bir xəstəlikdən beynəlxalq terrorizmdən sağaltmaq üçün mübarizə aparır, - Qarabağ münaqişəsinin də yaxın gələcəkdə bizim xeyrimizə həll olunacağına inanmaq istərdik, - eləcə də siyasət və beynəlxalq aləmdə gedən ən son hadisələrdə iştirakımız vacibdir.

Milli tariximizin Heydər Əliyev mərhələsi müstəqil Azərbaycanımızın intibahına təkan verən ən şanlı səhifələrdəndir. Xalqımız, xüsusən də Heydər Əliyevin arxalandığı yeni nəsil bunu heç vaxt unutmur.

Məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində siyasətə və idarəçilik sahələrinə yeni nəslin intellektual nümayəndələri cəlb olunmağa başladı. Bu dövrdə Heydər Əliyev intellektual siyasi-fəlsəfi dövlətçilik məktəbinin ən layiqli nümayəndəsi kimi İlham Əliyev beynəlxalq aləmdə tanınmağa başladı. Avropa Şurası Parlament Assambleyasının vitse-prezidenti və büro üzvü seçilən bu yeni nəsil intellektual siyasətçini dövlət başçısı seçən müdrik xalqımız dünya siyasət aləmində ciddi bir siyasətçi kimi tanınan Heydər Əliyevə bir daha ehtiram və məhəbbətini nümayiş etdirdi.

Azərbaycan Respublikasında keçirilən prezident seçkilərində cənab İlham Əliyevin siyasi qələbəsi məhz Heydər Əliyev İntellektual Siyasi-Fəlsəfi Dövlətçilik Məktəbinin böyük uğuru kimi qarşılanmalıdır.

Xalqımızın XXI yüzillikdə yeni milli lideri məhz Heydər Əliyevin ruhunu yaşadan, intellektini daşıyan, siyasi-fəlsəfi dövlətçilik yolunu davam etdirən İlham Əliyev olsa da, Prezidentimizin şəxsində yenə də Böyük Öndərimiz bizə əsl həqiqi yolu göstərir...

Elə böyük şəxslər olur ki, onların həyatı da, qəlblərdə yaşayan ruhları da, yaddaşlara həkk olunan xatirələri də milli dəyər və əhəmiyyət kəsb edir Heydər Əliyev xalqımızın qəlbində və yaddaşında məhz bu cür qaldığına görə, onun Fəxri Xiyabandakı məzarı bütün Azərbaycanlıların, xüsusən də biz yeni nəsil nümayəndələrinin Müqəddəs And Yerinə çevrilib...

Ruhun şad olsun, əziz Ulu Öndər, Heydər Atamız, biz yaşadıqca, Azərbaycan xalqı durduqca, həmişə qəlbimizdə yaşayacaqsız!!!

**Aydın XAN (ƏBİLOV),**

Yeni Yazarlar və Sənətçilər Qurumunun sədri,
www.kitabxana.net - Milli Virtual Kitabxananın rəhbəri, yazıçı-kulturoloq

# HEYDƏR ƏLİYEV MƏKTƏBİ

Görkəmli dövlət xadimi, böyük siyasətçi, istedadlı, gözəl bir insan kimi xatırladığım Heydər Əliyev haqqında yazmaq, onun 90 illik yubileyi ilə əlaqədar kitab hazırlamaq mənimçün həm məhsuliyyətli, həm də şərəfli işdir. Əminəm ki, Heydər Əliyev məktəbinin bir məzunu olaraq dahi Ustadın dühasının köməyilə məqsədimə nail olacaq, ulu öndər haqqında tədqiqatlarımı sizlərə çatdıracağam.

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV HAQQINDA



Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır.

Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.

1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqrad şəhərində (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun

və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi

rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir.

Dekabrın 12-də Azərbaycanın ümummilli lideri, Prezident Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat etmişdir.

Heydər Əliyev bir çox dövlət orden və medallara, beynəlxalq mükafatlara layiq görülmüş, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru seçilmişdir.

Heydər Əliyev dörd dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur.

27 mart 1997-si il - Kiyevdə Azərbaycanın dövlət başçısına Ukraynanın ali mükafatı "Yaroslav Mudrı" ordeni təqdim edilmişdir.

13 aprel 1999-cu il - Prezident Heydər Əliyev Türkiyənin ən nüfuzlu mükafatı - "Atatürk Sülh Mükafatına" layiq görülmüşdür.

20 yanvar 2001-ci il - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə Moskva Dövlət Universitetinin "Fəxri professoru" adı verilmişdir.

3 aprel 2003-cü il - Azərbaycan Prezidenti Heydər Əliyev Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının professoru və həqiqi üzvü seçilmiş, Y.V.Andropov adına mükafata layiq görülmüşdür.

10 may 2003-cü il - Rusiyanın yüksək mükafatı - Müqəddəs Apostol Andrey Pervozvannı ordeni ilə təltif olunması barədə Fərman imzalanmışdır.

**Zərifə xanım mənə xoşbəxtlik bəxş etmişdi**

İnsan mənəviyyat üçün yaşamalıdır. Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır ideyası ilə yaşayan görkəmli şəxsiyyətin uğurlarında sözsüz ki, həyatını bölüşdüyü Zərifə xanım Əliyevanın böyük rolu olmuşdur. Kitabı hazırlayarkən mən bu rolu böyük şəxsiyyətin səmimi sevgində gördüm, çox duyğulandım. Dahi İnsanların saf sevgisinin həmişəyaşar olduğuna və ondan böyük şəxsiyyətlər doğulduğuna bir daha əmin oldum.

...Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün

də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib.



Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür...

... Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib. Eyni zamanda, qəmli gündür. On il keçsə də, mən bu qəmdən ayrıla bilmirəm.

HEYDƏR ƏLİYEV
28.04.1995

## AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN YARADILMASINDA VƏ İNKİŞAFINDA HEYDƏR ƏLİYEİN ROLU

Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.

Heydər Əliyev.

Azərbaycan Respublikası on il əvvəl öz dövlət müstəqilliyini bərpa edərkən artıq Ermənistan Respublikası ilə müharibə vəziyyətində idi. Tarix boyu Azərbaycana qarşı ərazi iddiasında olan ermənilər onlara havadarlıq edən və ölkəmizi parçalamaq, onun müstəqilliyinə mane olmaq istəyən digər qüvvələrlə birlikdə torpaqlarımızın bir hissəsini işğal etmişdilər. O zaman Azərbaycana rəhbərlik edən şəxslər qətiyyətsizlik və iradsizlik nümayiş etdirərək Silahlı Qüvvələri yarada bilmədilər.

Ordu quruculuğunda düzgün siyasətin yeridilməməsi nəticəsində xalqın orduya etdiyi yardımlara, ayrı-ayrı döyüşlərdə xalqımızın vətənpərvər və igid oğullarının düşmənə layiqli müqavimət göstərmələrinə baxmayaraq, Silahlı Qüvvələr bütövlükdə uğursuzluğa düçar oldu.

Bütün bunların nəticəsində erməni Silahlı Qüvvələri Azərbaycan torpaqlarının 20 faizini zəbt etmiş, bir milyondan artıq vətəndaşımızı öz yurdlarından didərgin salmış, on minlərlə insanı məhv etmişdir.

Yalnız Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəlməsi və Azərbaycan Respublikasının Prezidenti seçilməsi vəziyyəti kökündən dəyişdi, respublikamızda ordu quruculuğu sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə güclü təkan verdi, cəbhədə vəziyyətin müsbət istiqamətdə inkişafına şərait yaratdı.

Heydər Əliyevin hakimiyyətə qayıtması və cəbhədə atəşkəsə nail olması dövlət quruculuğunun bütün sahələrində olduğu kimi Silahlı Qüvvələrdə də əsaslı islahatların aparılmasına imkan yaratdı. Silahlı Qüvvələrdən həyata keçirilən quruculuq işləri, struktur dəyişiklikləri döyüş əməliyyatlarının vahid rəhbərlik altında planlaşdırılması, hissələrin hərb elminin tələblərinə uyğun idarə edilməsi, kadrların saflaşdırılması, qoşun hissələrinin təxribatçı və siyasi ünsürlərdən təmizlənməsi Azərbaycan ordusunu keyfiyyətcə yeniləşdirdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğının

nəticəsində ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əvvəlki illərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi birləşmə və hissələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Silahlı Qüvvələrinə tələb olunan silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin istehsal olunması üçün sifarişlərin Azərbaycan Respublikasının sənaye müəssisələrində yerləşdirilməsi ölkə iqtisadiyyatının inkişafına da təkan verdi. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

1994-cü ilin oktyabr və 1995-ci ilin mart hadisələri zamanı zabit və əsgələrin Vətən qarşısında öz borclarını şərəflə yerinə yetirməsi bir daha sübut etdi ki, şəxsi heyət arasında müstəqillik amalı və hərbi anda sədaqət hissi yeni mənəvi-psixoloji iqlim formalaşmış, ordu hissələri artıq müxtəlif siyasi və cinayətkar mafioz dəstələri xidmət edən təxribatçılardan, casuslardan xeyli təmizlənmişdir.

Bu sahədə əldə edilmiş uğurlara baxmayaraq, son illərdə hərbi hissələrdə nizam-intizamın möhkəmləndirilməsi, təlim və tərbiyənin düzgün qurulması istiqamətində iş səngiməmiş, onun müasir səviyyədə aparılması üçün müvafiq nizamnamələr, təlimatlar hazırlamış və tətbiq edilmişdir. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan

qanunlar qəbul edilmiş və artıq Azərbaycan ordusunun mükəmməl qanunvericilik bazası yaradılmışdır.

Ordu quruculuğunun indiki mərhələsində Silahlı Qüvvələrdə aparılan islahatların əsas məqsədlərindən biri qoşunların Vətənə, Azərbaycan xalqına və dövlətinə sadiq, yüksək hərbi hazırlığa malik zabit, gizir və miçmanlarla tam komplektləşdirilməsinə nail olmaqdır. Silahlı Qüvvələrin şəxsi heyətlə komplektləşdirilməsi Ali Baş Komandanın göstərişlərinə və Azərbaycan Respublikasının hərbi qanunvericilik aktlarının tələblərinə uyğun vahid plan əsasında aparılır və ardıcıl xarakter daşıyır.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin sayəsində ölkəmizdə milli hərbi kadrların yetişdirilməsi üçün müasir tələblərə cavab verən hərbi təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzalamışdır.

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin zabitləri həmçinin Türkiyənin, Ukraynanın, Rusiyanın, Pakistanın, Çinin, Almaniyanın, Böyük Britaniyanın, İtaliyanın, Rumıniyanın, Macarıstanın hərbi akademiyalarında və dinləmə kurslarında da təhsil alırlar. Zabitlərimizin Amerika Birləşmiş Ştatlarında təhsil alması haqqında artıq razılıq əldə edilmişdir.

Silahlı Qüvvələrin şəxsi heyətinin sosial müdafiəsinin təmin edilməsi məqsədilə 1993-cü ildən başlayaraq, hərbi qulluqçuların, Müdafiə Nazirliyi sistemində işləyən fəhlə və qulluqçuların əmək haqqı artırılmış, şəxsi heyətin tibbi, ərzaq və əşya-əmlak təminatının yaxşılaşdırılması istiqamətində iş aparılmışdır. Hərbi hissələrin maddi-texniki bazaları, əsgər yataqxanaları müasir tələblərə uyğun təmir edilmiş, şəxsi heyətin asudə vaxtının maraqlı və səmərəli təşkili üçün texniki təbliğat vasitələrinin təminatına diqqət artırılmışdır.

Azərbaycan Silahlı Qüvvələrinin hərc-mərclik illərindəki siyasi oyunlardan və siyasi qüvvələrdən uzaqlaşdırılması, onların intizamlı, mənəvi cəhətdən saf, yüksək peşəkarlığı ilə seçilən kadrlarla təmin olunması, təchizatının yaxşılaşdırılması, quruculuq işlərinin elmi əsaslarla aparılması, ordunun güclənməsi, vətənimizin suverenliyinin və müstəqilliyinin möhkəm təminatçısına çevrilməsi respublika Prezidenti Heydər Əliyevin rəhbərliyi altında aparılan işlərin, onun tələbkarlığının məntiqi nəticəsidir.

Materialların yazılmasında "Azərbaycan Respublikası 1991-2001" kitabından istifadə olunmuşdur.

Müəlliflər: Abdullazadə Fatma, Ələsgərov Fuad Əlirzayev Əli, Əsədov Əli, Həsənov Əli, Xəlilov Səlahəddin, Qafarov Tahir, Mahmudov Yaqub, Rəhimov Mayıl.

Kitab fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin ümumi redaktəsi altında çapa hazırlanmışdır.

## AZƏRBAYCAN RESUBLİKASININ İQTİSADİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

Heydər Əliyev

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir.

Müstəqillik dövründən bu günə kimi ölkədə mövcud iqtisadi inkişafı iki əsas mərhələyə ayırmaq olar. Birincisi, 1991-1995-ci illəri əhatə edən iqtisadi xaos və ya tənəzzül dövrü. İkincisi, 1996-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü.

Dövlət müstəqilliyinin bərpasından sonra ötən qısa tarixi dövr ərzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ağır ilkin şərtlərə baxmayaraq, ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə

olunmuşdur. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli - Azərbaycan modeli yaranmışdır.

Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsinə və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı sazişin imzalanmasına, beləliklə də ixrac marşrutlarının diversifikasiyasına nail olundu.

Ümummilli Liderimiz Heydər Əliyevin 1999-cu ildə imzaladığı Fərmanla neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarə edilməsi, həmin vəsaitlərin prioritet sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək üçün Dövlət Neft Fondu yaradıldı. Hazırda beynəlxalq təşkilatlar tərəfindən Fondun fəaliyyəti və bu sahədə şəffaflığın təmin edilməsi yüksək qiymətləndirilir.

Neft-qaz sektoru iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv rolunu oynadı. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlandı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı.

Sahibkarlığı inkişaf etdirmək, əlverişli biznes və investisiya mühiti yaratmaqla daxili və xarici investisiyaları cəlb etmək, qeyri-neft sektorunun inkişafına nail olmaq bu mərhələdə həyata keçirilən iqtisadi siyasətin səciyyəvi xüsusiyyətlərindən biri olmuşdur. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda sahibkarlar təbəqəsi formalaşmış, özəl sektorun ölkənin sosial-iqtisadi inkişafında rolu daha da artmışdır.

İqtisadiyyatda mülkiyyətin çoxnövlülüyü təmin olunması istiqamətində həyata keçirilən tədbirlər davamlı iqtisadi inkişafa öz müsbət nəticəsini vermişdir. Belə ki, özəlləşdirməyə başlayan zaman özəl sektorun ÜDM-də payı faktiki olaraq 10%-dən az olmasına baxmayaraq hazırda onun xüsusi çəkisi 85%-ə çatmışdır.

Beləliklə, Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində müstəqilliyin ilk illərində baş vermiş tənəzzülün qarşısı uğurla alındı və 1995-ci ildən Azərbaycanda keçid dövrünün yeni mərhələsi – bərpa və dinamik inkişaf dövrü başlandı. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1%, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 25,2%, kənd təsərrüfatı istehsalının həcmi 53,9%, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq real əmək haqqı 5,6 dəfə artdı, inflyasiya səviyyəsi 2-3%-ə qədər endirildi, bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş

investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçdi.

Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandıqdan sonra onun xarici iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini beynəlxalq maliyyə-kredit və iqtisadi qurumlarla əlaqələr təşkil etmişdir. Ötən dövr ərzində bu sahədə kifayət qədər iş görülmüşdür. Azərbaycan, demək olar ki, bütün nüfuzlu beynəlxalq qurumlara, o cümlədən 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına, 1999-cu ildə Asiya İnkişaf Bankına üzv qəbul olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən və yeni çalarlarla zənginləşdirilmiş sosial-iqtisadi siyasətin strateji məqsədləri sərbəst bazar münasibətlərinə və özünüinkişaf qabiliyyətinə malik olan sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyasının təmin olunmasıdır.

Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, bu dövrdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, milli valyutanın sabitliyi, bank sisteminin etibarlılığı artırılmış, konservativ xarici borclanma strategiyası həyata keçirilmiş, sahibkarlığa

dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır.

İqtisadiyyatın diversifikasiyası ilə bağlı nəzərdə tutulmuş tədbirlərin sistemli və ardıcıl reallaşdırılması üçün dövlət başçısının müvafiq fərman və sərəncamları ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və bir sıra sahəvi inkişaf proqramları təsdiq edilmiş və uğurla icra olunur.

## ƏSRİN MÜQAVİLƏSİ

Azərbaycan Respublikasının siyasi və iqtisadi inkişafinda uzaqgörən siyasətçi Heydər Əliyevin rəhbərliyi ilə imzalanmış "Əsrin müqaviləsi"nin böyük rolu vardır. Ulu öndər bu haqda deyir: "Əsrin müqaviləsi ilə qoyduğumuz təməl



XXI əsrdə Azərbaycan xalqının inkişafı, firəvan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır”.

“Əsrin müqaviləsi” çətinliklərə baxmayaraq 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. “Əsrin müqaviləsi”ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak etmişdir. Bununla da "Yeni neft strategiyası" və doktrinası uğurla həyata keçirilməyə başlandı. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. İlk dəfə hesablanmış çıxarılabilən neft ehtiyatı 511 milyon ton olmuş, sonralar qiymətləndirici quyuların nəticələrinə görə bu ehtiyat 730 milyon tona çatmışdır və bununla əlaqədar yataqların işlənilməsinə tələb olunan sərmayə xərcləri 11,5 milyard ABŞ dolları qəbul edilmişdir; ümumi təmiz gəlirdən

Azərbaycanın payına 80%, sərmayəçilərin payına 20% düşür.

"Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olmuşdur. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları qoyuluşunun 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilmişdir.

"Əsrin müqaviləsi"nin həyata keçirilməsinə başlanan vaxtdan Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlərə başlandı. Birinci növbədə 1995-ci ildə ilkin neft hasilatı layihəsi çərçivəsində Çıraq-1 özülü qərb standartlarına uyğun olaraq bərpa olundu və böyük maillikli quyuların qazılması məqsədilə bu özülün üst modulu modernizə edilərək yeni qazma avadanlıqları ilə təchiz olundu. Yeni qazma qurğusu laylara horizontal quyuların qazılmasına imkan verdi. Maksimal mailliklə qazılmış A-18 (inhirafı-5500 m), A-19 (inhirafı-6300m-dən artıq) və s. istismar quyuları böyük neft hasilatı ilə işə düşdülər. 1997-ci ildə Çıraq yatağından neft hasilatına başlandı.

1999-cu ilin dekabrında Azərbaycanın "mənfəət nefti" ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı. Bu neftin satışından əldə edilən valyuta ümummilli liderimiz Heydər Əliyev tərəfindən yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxil olur və xalqa fayda verir. Şimal istiqamətindəki uzunluğu 231 km, diametri 720 mm olan Bakı-Novorossiysk neft kəmərinin Azərbaycan hissəsi bərpa və inşa edilmişdir və ilk dəfə 25 oktyabr 1997-ci ildə Azərbaycan nefti Novorossiysk limanına (Rusiya Federasiyasına) nəql olunmuşdur. Kəmər istifadəyə verilən gündən 2010-cu il aprelin 1-dək bu marşrutla 30 milyon 867 min ton neft nəql edilib.

Qərb istiqamətində uzunluğu 837 km, diametri 530 mm Bakı-Supsa boru kəməri inşa edilərək, 17 aprel 1999-cu ildə işə salınmışdır. İstifadəyə verilən gündən 2010-cu il aprelin 1-dək Bakı-Supsa kəməri ilə 51 milyon 586 min ton neft nəql edilib. 1997-ci ildə respublikada neft hasilatı 9 milyon ton idisə, 2009-ci ildə bu rəqəm 50 milyon tonu keçmişdir.

Xəzərin böyük dərinliklərində yerləşən sahələrdə dərin kəşfiyyat quyularının qazılması məqsədilə "Dədə Qorqud" (keçmiş "Kaspmorneft") yarımdalma üzən qazma qurğusu təmir və modernizə edilmişdir və 50-475 m dəniz dərinliyində 7620 m dərinliyinə qədər quyu qazmaq imkanına malikdir. Digər qurğu "İstiqlal" (keçmiş "Şelf-5") yarımdalma üzən qazma qurğusu təmir və modernizə edilərək, 50-700 m dəniz dərinliyində 7620 m dərinliyə qədər quyu qazmaq mümkün olmuşdur. Modernizə

olunmuş qazma qurğularının köməyi ilə "Azəri-Çıraq-Günəşli" yataqlarında birgə aparılan işlər nəticəsində 6 kəşfiyyat quyusu qazıldı, bunların səhəsində sonradan neft ehtiyatları 30%-dən çox artırıldı. Bu qurğular 1996-cı ildə yaradılmış "Kaspian Drillinq Kompani" müştərək müəssisənin tərkibində "Şahdəniz" və "Azəri-Çıraq-Günəşli" yataqlarında öz işlərini uğurla davam etdirirlər. Xarici şirkətlər tərəfindən Azərbaycan üçün tikilmiş, Heydər Əliyev adına "Lider" qurğusunun köməyi ilə də texnika-texnoloqiya sahəsində böyük irəliləyişlər əldə edilmişdir.



1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası Müqavilə imzalanmışdır. 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında ümummilli liderimiz Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyulmuş və tikintisinə başlanmışdır. BTC-nin Azərbaycan hissəsinin Gürcüstan

hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında baş tutdu. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. BTC istismara verilən gündən 2010-cu ilin aprel ayının 1-dək Ceyhan limanından 112,8 milyon ton Azərbaycan nefti dünya bazarlarına yola salınmışdır.

Bu "əsas ixrac neft kəməri"nin texniki-iqtisadi əhəmiyyətindən başqa, onun siyasi rolu da böyükdür. Belə ki, bu neft kəməri dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin, dünya xalqları ilə Azərbaycan xalqının əlaqələrinin yenidən qurulmasına təkan verəcək, Azərbaycanın xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə səbəb olacaqdır.

2010-cu il mart ayının 9-da Çıraq Neft Layihəsinə sanksiya verilməsinə dair qətnamə imzalanmış və bu layihəyə 6 milyard dollar yönəldilmişdir. Layihə çərçivəsində Xəzər dənizində yeni platforma - Qərbi Çıraq Hasilat, Qazma və Yaşayış Bloklu platforma inşa olunacaq. 50-dən artıq yerli şirkət ÇNL üzrə tikinti işlərində birbaşa və dolayısı ilə iştirak edəcək. Layihənin bütün tikinti və quraşdırma işləri daxili qüvvələr hesabına icra olunacaq. Azəri-Çıraq-Günəşli" yataqlar blokunun 15 il əvvəl başlanmış işlənməsinin davamı olan Çıraq Neft Layihəsindən ilk neft haslatı 2013-cü ilə planlaşdırılır.

Çıraq Neft Layihəsi Azəri-Çıraq-Günəşli yatağından hasilatın artırılması və ümumilikdə 360 milyon barrel

əlavə ehtiyatların çıxarılması üçün planlaşdırılmış bir layihədir.

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINDA ROLU

Təhsil ölkənin beynəlxalq aləmdə rolunu müəyyən edən əsas amillərdən biridir. O maddi-mənəvi dəyərlərin və strateji gücün göstəricisidir.

Dahi liderimiz Heydər Əliyevin təhsilə verdiyi qiyməti onun öz ilə ifadə etmək istəyirəm: “Təhsil millətin gələcəyidir. Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam… Hesab edirəm ki, cəmiyyət haradan olursa olsun, nədən olursa olsun, kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipal mövqeyimdir”. Azərbaycanlı olmağı ilə fəxr edən, özünü sadə Azərbaycan vətəndaşı kimi hiss edib müəllim adını bütün adlardan üstün tutan ulu öndər müəllimə həmişə yüksək qiymət vermiş və Azərbaycan Respublikasına rəhbərlik etdiyi bütün dövrlərdə təhsilin inkişafı üçün bir çox yeniliklər etmişdir.

Heydər Əliyev SSRİ dövründə, yəni Azərbaycan Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də təhsillə bağlı məsələləri daim diqqət mərkəzində saxlamış, ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə “Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf

etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılmışdır. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi.

Ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və onun təşəbbüsü, birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. O, təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır.

2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biridir. Bu sərəncam ümumtəhsil məktəbləri

şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. “Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə təhsil sahəsində müstəsna əhəmiyyətə malik dövlət sənədidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli və “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2 yanvar 2003-cü il tarixli fərmanları ilə ədəbi dilimizin fəaliyyət meydanı daha da genişləndirilmişdir.

Yaşadığımız "təhsil əsri"ndə (XXI) ulu öndərin işlərini onun davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev davam etdirir, ardıcıl olaraq ölkədə təhsil sahəsində məqsədyönlü islahatlar həyata keçirir.

Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik.

Neft, qaz Tanrıdan verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra təmin edəcəkdir. Ən inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, o ölkənin inkişafında ən aparıcı rol oynayan

neft, qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır.

**İlham Əliyev**

Təhsil sahəsində yeniliyə, inkişafa nail olmaq üçün intellektuallığı, idarəetmə qabiliyyəti və siyasi fəallığı ilə dünya siyasətçilərindən seçilən gənc liderimiz bir çox fərmanları, sərəncamlar imzalamışdır

1) "Təhsil haqqında" Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli qərarı

2) Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

3) "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

3) "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrə etməkdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli 2090 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

4) "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"nın hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

5) “Azərbaycan Respublikasında 2013-cü ilin “İnformasiya-kommunikasiya Texnologiyaları ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və sairə.

**Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümüdlər bəsləyirəm. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim tale yüklü məsələləri, planıarı sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıracaq!**

**Heydər Əliyev**

Ulu öndərimizin özü qədər inandığı Prezidentimiz İlham Əliyevin ölkəmizi işıqlı gələcəyə apardığına biz də inaniriq və onun siyasətini dəstələyik! İlham Əliyev cənablarına və Azərbaycanın Birincı Xanımı Mehriban Əliyevaya bütün işlərində uğurlar arzulayırıq!

## İstifadə edilmiş mənbələr:

http://www.azerbaijan.az/portal/Economy/General/generalInfo_01_a.html, 05.05.2013

http://az.wikipedia.org/wiki/%C4%B0qtisadiyyat, 05.05.2013

http://heydar-aliyev.org/index_az.jsp - 2.05.2013
http://www.zarifa-aliyeva.az/ - 2.05.2013
http://az.wikipedia.org/wiki/Sevil_%C6%8Fliyeva – 2.05.2013
http://az.wikipedia.org/wiki/%C4%B0lham_%C6%8Fliyev – 2.05.2013
http://azerbaijans.com/index_az.html - Azərbaycan
http://www.kur-ia.com/?p=10343
http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/99233.htm
http://elibrary.bsu.az/kis/1595.pdf
http://www.edu.gov.az/view.php?lang=az&menu=73

**Nurlan Səəddin qızı Quliyeva,**

Göygöl rayon Ə. Məmmədov adına Üçtəpə kənd tam orta məktəbin riyaziyyat və informatika müəllimi, Yeni Yazarlar və Sənətçilər Qurumunun İdarə Heyətinin üzvü, Gəncə bölgəsi üzrə səlahiyyətli nümayəndəsi

# HEYDƏR ƏLİYEVİN "ƏSİR VƏ GİROVLARIN GERİ QAYTARILMASI"NDA ROLU

XX əsrin 80-ci illərinin sonunda SSRİ-nin başında durduğu sosializm sistemi öz tənəzzül dövrünü yaşayırdı. Ötən əsrin ikinci yarısında dünyanın siyasi qütbləşməsinin doğurduğu mübarizənin nəticəsində tarixə "soyuq müharibə" kimi düşmüş tarixi mərhələ Qərb demokratiyasının qələbəsi ilə başa çatdı. Sosializm siyasi sisteminin çökməsi öz növbəsində ictimai mülkiyyətə əsaslanan ekstensiv sosialist iqtisadiyyatının da iflasına səbəb oldu. İqtisadi böhrandan xilas olmaq ehtiyacı son illərini yaşayan SSRİ-ni planlı iqtisadiyyatdan liberal bazaar iqtisadiyyatına keçid zərurəti qarşısında qoyurdu. Sovetlər birliyində iqtisadi sistemin bünövrəsində duran ictimai və dövlət mülkiyyətinin xüsusi mülkiyyətlə əvəz olunması zərurətə çevrilir, beləliklə, "xalqlar həbsxanasının" siyasi və iqtisadi-mədəni iflası sürətlənirdi. Bu ərəfədə ciddi enerji çatışmazlığının astanasında olan dünya dövlətləri sovet dövlətinin süqutu nəticəsində yaranacaq gənc dövlətlərin enerji mənbələrinə vəsiqə almaq ümidi ilə əvvəlcə tənəzzüldə olan kommunist rejiminin, daha sonra isə postsovet məkanında yaranmış yeni dövlətlərdə bazar iqtisadiyyatına meylli islahatlarını dəstəkləyirdi.

Məhz həmin dövrdə ermənilərin XX əsrdə artıq dördüncü dəfə kütləvi və təşkil olunmuş şəkildə Azərbaycan torpaqlarına qarşı əsassız ərazi iddialarının, soyqırım və deportasiya siyasətinin nəticəsi kimi alovlanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə SSRİ rəhbərliyi əslində açıq şəkildə dəstək verdi. Bu və bu kimi milli-etnik münaqişələrə sovetlər birliyinin məhvi üçün detonator kimi baxan Qərb dövlətləri də bu münaqişənin həllinə ilk illərdə heç bir maraq göstərmədilər. SSRİ dağıldıqdan sonra isə Cənubi Qafqaza əvvəlki nəzarətini qoruyub saxlamağa can atan Rusiya nəinki problemin vaxtında həllinə cəhd göstərmədi, əksinə, münaqişə tərəflərinin maraqlarının uzlaşmaması üçün əlindən gələni etdi və əslində bu münaqişəni birbaşa Azərbaycanın müstəqilliyi üçün təzyiq vasitəsinə çevirdi.

Beləliklə, ermənilərin "Böyük Ermənistan" yaratmaq xülyası onların sovet imperiyasındakı, eləcə də xarici ölkələrdəki himayədarlarının dəstəyi ilə yeni mərhələyə daxil oldu. Qərbi Azərbaycan torpaqlarında etnik təmizləmə və dinc azərbaycanlı əhaliyə qarşı dövlət səviyyəsində zorakılıq başlandı. XX əsrin 80-ci illərinin sonunda SSRİ-nin başında durduğu sosializm sistemi öz tənəzzül dövrünü yaşayırdı. Ötən əsrin ikinci yarısında dünyanın siyasi qütbləşməsinin doğurduğu mübarizənin nəticəsində tarixə "soyuq müharibə" kimi düşmüş tarixi mərhələ Qərb demokratiyasının qələbəsi ilə başa çatdı. Sosializm siyasi sisteminin çökməsi öz növbəsində ictimai

mülkiyyətə əsaslanan ekstensiv sosialist iqtisadiyyatının da iflasına səbəb oldu. İqtisadi böhrandan xilas olmaq ehtiyacı son illərini yaşayan SSRİ-ni planlı iqtisadiyyatdan liberal bazar iqtisadiyyatına keçid zərurəti qarşısında qoyurdu. Sovetlər birliyində iqtisadi sistemin bünövrəsində duran ictimai və dövlət mülkiyyətinin xüsusi mülkiyyətlə əvəz olunması zərurətə çevrilir, beləliklə, "xalqlar həbsxanasının" siyasi və iqtisadi-mədəni iflası sürətlənirdi. Bu ərəfədə ciddi enerji çatışmazlığının astanasında olan dünya dövlətləri sovet dövlətinin süqutu nəticəsində yaranacaq gənc dövlətlərin enerji mənbələrinə vəsiqə almaq ümidi ilə əvvəlcə tənəzzüldə olan kommunist rejiminin, daha sonra isə postsovet məkanında yaranmış yeni dövlətlərdə bazar iqtisadiyyatına meylli islahatlarını dəstəkləyirdi.

Məhz həmin dövrdə ermənilərin XX əsrdə artıq dördüncü dəfə kütləvi və təşkil olunmuş şəkildə Azərbaycan torpaqlarına qarşı əsassız ərazi iddialarının, soyqırım və deportasiya siyasətinin nəticəsi kimi alovlanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə SSRİ rəhbərliyi əslində açıq şəkildə dəstək verdi. Bu və bu kimi milli-etnik münaqişələrə sovetlər birliyinin məhvi üçün detonator kimi baxan Qərb dövlətləri də bu münaqişənin həllinə ilk illərdə heç bir maraq göstərmədilər. SSRİ dağıldıqdan sonra isə Cənubi Qafqaza əvvəlki nəzarətini qoruyub saxlamağa can atan Rusiya nəinki problemin vaxtında həllinə cəhd göstərmədi, əksinə, münaqişə tərəflərinin maraqlarının

uzlaşmaması üçün əlindən gələni etdi və əslində bu münaqişəni birbaşa Azərbaycanın müstəqilliyi üçün təzyiq vasitəsinə çevirdi.

Beləliklə, ermənilərin “Böyük Ermənistan” yaratmaq xülyası onların sovet imperiyasındakı, eləcə də xarici ölkələrdəki himayədarlarının dəstəyi ilə yeni mərhələyə daxil oldu. Qərbi Azərbaycan torpaqlarında etnik təmizləmə və dinc

azərbaycanlı əhaliyə qarşı dövlət səviyyəsində zorakılıq başlandı. XX əsrin 80-ci illərinin sonunda SSRİ-nin başında durduğu sosializm sistemi öz tənəzzül dövrünü yaşayırdı. Ötən əsrin ikinci yarısında dünyanın siyasi qütbləşməsinin doğurduğu mübarizənin nəticəsində tarixə “soyuq müharibə” kimi düşmüş tarixi mərhələ Qərb demokratiyasının qələbəsi ilə başa çatdı. Sosializm siyasi sisteminin çökməsi öz növbəsində ictimai mülkiyyətə əsaslanan ekstensiv sosialist iqtisadiyyatının da iflasına səbəb oldu. İqtisadi böhrandan xilas olmaq ehtiyacı son illərini yaşayan SSRİ-ni planlı iqtisadiyyatdan liberal bazar iqtisadiyyatına keçid zərurəti qarşısında qoyurdu. Sovetlər birliyində iqtisadi sistemin bünövrəsində duran ictimai və dövlət mülkiyyətinin xüsusi mülkiyyətlə əvəz olunması zərurətə çevrilir, beləliklə, “xalqlar həbsxanasının” siyasi və iqtisadi-mədəni iflası sürətlənirdi. Bu ərəfədə ciddi enerji çatışmazlığının astanasında olan dünya dövlətləri sovet dövlətinin süqutu nəticəsində yaranacaq gənc dövlətlərin enerji mənbələrinə vəsiqə almaq ümidi ilə əvvəlcə tənəzzüldə olan

kommunist rejiminin, daha sonra isə postsovet məkanında yaranmış yeni dövlətlərdə bazar iqtisadiyyatına meylli islahatlarını dəstəkləyirdi.

Məhz həmin dövrdə ermənilərin XX əsrdə artıq dördüncü dəfə kütləvi və təşkil olunmuş şəkildə Azərbaycan torpaqlarına qarşı əsassız ərazi iddialarının, soyqırım və deportasiya siyasətinin nəticəsi kimi alovlanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə SSRİ rəhbərliyi əslində açıq şəkildə dəstək verdi. Bu və bu kimi milli-etnik münaqişələrə sovetlər birliyinin məhvi üçün detonator kimi baxan Qərb dövlətləri də bu münaqişənin həllinə ilk illərdə heç bir maraq göstərmədilər. SSRİ dağıldıqdan sonra isə Cənubi Qafqaza əvvəlki nəzarətini qoruyub saxlamağa can atan Rusiya nəinki problemin vaxtında həllinə cəhd göstərmədi, əksinə, münaqişə tərəflərinin maraqlarının uzlaşmaması üçün əlindən gələni etdi və əslində bu münaqişəni birbaşa Azərbaycanın müstəqilliyi üçün təzyiq vasitəsinə çevirdi.

Beləliklə, ermənilərin "Böyük Ermənistan" yaratmaq xülyası onların sovet imperiyasındakı, eləcə də xarici ölkələrdəki himayədarlarının dəstəyi ilə yeni mərhələyə daxil oldu. Qərbi Azərbaycan torpaqlarında etnik təmizləmə və dinc azərbaycanlı əhaliyə qarşı dövlət səviyyəsində zorakılıq başlandı. "Türklərsiz Ermənistan" yaratmaq, Dağlıq Qarabağı ilhaq etmək, Şərqi Anadolunu ələ keçirərək, Aralıq dənizi sahilinə dəhliz açmaq kimi tərkib hissələrdən ibarət təcavüzkar planın həyata

keçirilməsinə start verildi. Azərbaycanlılar 1918-ci ildə tarixdə Cənubi Qafqazda ilk qondarma erməni dövlətinin yaradıldığı ata yurdundan – Qərbi Azərbaycan torpaqlarından 1988-1989-cu illərdə tamamilə didərgin salındılar. 8 avqust 1991-ci ildə Ermənistanın Mehri rayonunun azərbaycanlı kəndi olan Nüvədidən əhalinin tamamilə çıxarılması ilə Qərbi Azərbaycandakı sonuncu azərbaycanlı ailəsi ev-eşiyini tərk etdi. Erməni zorakılığı nəticəsində yüzlərlə insan vəhşicəsinə qətlə yetirildi, yaralandı, ömürlük şikəst oldu, minlərlə şəxs təhqirlərə məruz qaldı. 200 mindən artıq azərbaycanlı uzunmüddətli qaçqın həyatına məhkum olundu. 1991-ci ilin dekabrında SSRİ-nin faktiki iflasından sonra münaqişə növbəti mərhələyə qədəm qoydu. Azərbaycanın o zamankı siyasi hakimiyyətinin fəaliyyətsizliyindən, bir sıra hallarda isə mənfi nəticələrə səbəb olan səhlənkarlığından yararlanan Ermənistan isə Dağlıq Qarabağın azərbaycanlılardan ibarət yaşayış məntəqələrinə mütəşəkkil silahlı basqınları daha da genişləndirdi. 1992-ci ilin yanvar-fevral aylarında bir sıra yaşayış məntəqələri işğal edildi. 1992-ci il fevralın 25-dən 26-a keçən gecə erməni yaraqlılarının Rusiyanın bölgədəki 366-cı motoatıcı alayı ilə birgə həyata keçirdikləri Xocalı faciəsi törədildi. Son dərəcə böyük qəddarlıqla həyata keçirilən bu soyqırım aktında 613 nəfər öldürüldü, 657 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu. Öldürülənlərdən 106 nəfəri qadın, 63-ü azyaşlı uşaq, 70 nəfəri qocalar idi. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər

validevnlərindən birini itirdi. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürüldü, onların 150-nin taleyi indi də məlum deyil.

1992-ci il mayın 8-də Yuxarı Qarabağda azərbaycanlıların yaşadığı sonuncu, 52-ci yaşayış məntəqəsi, tarixi Şuşa şəhəri zəbt edilməklə Dağlıq Qarabağın tam ilhaqı, mayın 18-də Laçın rayonunun zəbt edilməsi ilə isə onun coğrafi baxımdan Ermənistana birləşdirilməsi siyasəti reallaşdırıldı.

Ölkədəki səriştəsiz idarəetmə üzündən iflic vəziyyətinə düşən hakimiyyət isə nə düşmən işğalına qarşı zəruri müdafiənin təşkili, nə də əsarətdə olan vətəndaşların azad edilməsi istiqamətində lazımi tədbirləri görə bilmədi. Əksinə, əsir və girovların sayının, düşmən əlində saxlandığı yerin müəyyənləşdirilə bilməməsi azmış kimi, bütövlükdə insanlığa qarşı cinayət aktı kimi bəşəriyyətin tarixinə yazılmış Xocalı faciəsinə adekvat münasibət göstərə bilmədi.

Faciədən sonra ölkədə apogey nöqtəsinə çatan siyasi böhran 1992-ci il martın 6-da Prezident A.Mütəllibovun istefası ilə nəticələndi. Onun mayın 14-15-də hakimiyyəti yenidən ələ almaq cəhdi iflasa uğradıqdan sonra hakimiyyətə yiyələnən AXC-Müsavat cütlüyü dövründə, 1992-ci ilin yay-payız aylarında düşmənlə cəbhə bölgəsində müəyyən hərbi uğurlar əldə olunsa da, ölkədə getdikcə dərinləşən hərbi-siyasi böhranın aradan qaldırılması mümkün olmadı. 1993-cü ilin əvvəllərindən qazanılan hərbi uğurlar hakimiyyət uğrundakı siyasi

çarpışmalara fonunda əldən verildi. 1993-cü il aprelin 2-də Kəlbəcər rayonu erməni silahlı qüvvələri tərəfindən işğal olundu. May ayında hakimiyyətə tabe olmaqdan imtina edərək hakimiyyətə qarşı ciddi siyasi iddialarla çıxış edən polkovnik Surət Hüseynovun qanunsuz əməllərinin qarşısının alınması üçün qeyri-peşəkarlıqla hazırlanan əməliyyat uğursuzluqla nəticələndi və 1993-cü il iyunun 4-də Gəncədə o zamankı iqtidarın sonunu tezləşdirən qanlı hadisələr baş verdi. Yay aylarında ölkədə yaranmış qeyri-stabil ictimai-siyasi vəziyyət, hərbi birləşmələrin ayrı-ayrı siyasi qruplaşma və partiyaların ambisiyalarına xidmət etməsi Dağlıq Qarabağ ətrafındakı rayonların bir-birinin ardınca düşmənin nəzarətinə keçməsi ilə nəticələndi. 1993-cü il iyunun 15-də görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri, həmin il oktyabrın 3-də isə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkədə müstəqilliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu və Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində yeni mərhələ başlandı. 1994-cü il may ayının 12-də aktiv hərbi əməliyyatların kəsilməsi haqqında ermənilərlə saziş bağlandı. Yeri gəlmişkən, Azərbaycanda ermənilər tərəfindən əsir və girov götürülmüş soydaşlarımızın düşmən tərəfindən alınıb ailələrinə qaytarılması prosesinə dair ilkin faktlar ümummilli lider Heydər Əliyevin 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrə təsadüf edir. Bu dövrdə Aərbaycanın müxtəlif rayonlarından olan

insanların birbaşa Naxçıvan MR Ali Məclisinin rəhbərinə müraciətlərindən sonra Heydər Əliyevin Ermənistan rəhbərliyi ilə apardığı danışıqlar nəticəsində xeyli vətəndaşımız erməni əsir və girovluğundan azad edilərək ailələrinə qovuşmuşlar.

1988-1994-cü illəri əhatə edən milli münaqişə, əslində isə real müharibə nəticəsində 4852 Azərbaycan vətəndaşı əsir və girov götürüldü, itkin düşdü (149). Azərbaycan rəhbərliyinin ciddi səyləri, beynəlxalq humanitar təşkilatlarla fəal əməkdaşlıq sayəsində 1401 soydaşımız erməni əsirliyindən azad edilsə də, əsir və girovluqda saxlanması barədə inkarolunmaz dəlillərə baxmayaraq, 783 vətəndaşın əsarətdə olması faktı düşmən tərəfindən bu günədək inkar edilməkdədir. Hərbi təcavüz nəticəsində ölkə iqtisadiyyatına ilkin hesablamalara görə 22 milyard ABŞ dolları məbləğində ağır ziyan vuruldu 18 min Azərbaycan vətəndaşı həlak oldu, 5000-dən artıq insan əsir və girov götürüldü, itkin düşdü, 50 min nəfər yaralandı və işgəncələrə məruz qaldı. Bir milyondan çox həmvətənimiz qaçqına çevrildi. Məhz 1991-1993-cü illərdə ümummilli lider Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrdə ermənilər tərəfindən əsir və girov götürülmüş, münaqişə bölgəsində itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi, onların xilas edilərək ailələrinə qaytarılması istiqamətində cox işlər görmüşdü. XX əsrin 80-ci illərinin ortalarından etibarən sovetlər birliyinin dərinləşməkdə olan siyasi və sosial-iqtisadi böhranından ermənilər özlərinin

Azərbaycana münasbətdə tarixən həyata keçirməyə can atdıqları qəsbkarlıq siyasətlərinin yenidən reallaşdırılması üçün istifadə etməyə başladılar. SSRİ rəhbərliyinin Ermənistanı, erməni separatçılarını dəstəkləməsi, eləcə də milli münaqişələrə sovet dövlətinin və sosializm sisteminin süqutunu sürətləndirəcək vasitə kimi baxan, türk xalqlarına münasibətdə çox vaxt ədalətsiz mövqe tutan Qərb ölkələrinin ikili standartlar siyasəti nəticəsində Azərbaycan ciddi problemlərlə üz-üzə qaldı. Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmiz öz ərazisinin 20 faizini itirdi, minlərlə vətəndaş həlak oldu, yaralandı, şikəst oldu, yaşayış məskənləri dağıdıldı. Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası, respublikanın işğala məruz qalmış ərazilərində əhalinin öz yaşayış yerlərini tərk etməyə məcbur olması sayı bir milyona çatan qaçqın və köçkünlərin yaranmasına gətirib çıxartdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə minlərlə Azərbaycan vətəndaşı əsir və girov götürülmüş, itkin düşmüşdü. İnsan hüquqlarının qorunmasına dair beynəlxalq konvensiyalara əsasən Ermənistanda əsirlikdə olan şəxslərə münasibətdə qəddarlıq edilməməli, işgəncə verilməməli idi. Halbuki bütün beynəlxalq hüquq normalarını tapdalayan ermənilər əsir və girov götürdükləri adamları işgəncə altında saxlamış və böyük əksəriyyətini amansızlıqla öldürmüşlər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ilk illərində əsir və girov götürülən, cəbhə bölgəsində itkin düşənlərin yerinin müəyyənləşdirilməsi,

onların əsarətdən xilas edilməsi məsələsində Azərbaycanda bu istiqamətdəki işin dövlət nəzarətində olmaması, qeyri-nizami, pərakəndə xarakter daşıması ölkə vətəndaşlarının erməni zülmündən xilas olmasını xeyli çətinləşdirirdi.

1991-1993-cü illərdə ümummilli lider Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin Sədri işləyərkən düşmən tərəfindən əsir və girov götürülmüş, itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi, erməni əsirliyindən qurtarılması onun birbaşa nəzarətində olmuş və ulu öndər onlarla Azərbaycan vətəndaşının xilas edilərək öz ailələrinə qaytarılmasına nail olmuşdu.

Azərbaycan Prezidentinin 1993-cü ilin yanvar ayındakı sərəncamına əsasən Əsir və Girov Götürülən, İtkin Düşən Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyası yaradılmış, bir müddət sonra Dövlət Komissiyasının Əsasnaməsi, iş planı təsdiq edilmiş, İşçi qrupu yaradılmışdı. Dövlət Komissiyasının qarşısına erməni əsirliyində olan vətəndaşlar barəsindəki məlmatları sistemləşdirərək təhlil etmək, onların geri qaytarılması istiqamətində iş aparmaq, azad edilmiş şəxslərin sosial reabilitasiyası, ermənilərin əsirlərlə qəddar rəftarı haqqında dünya ictimaiyyətinə məlumat vermək məsələləri qoyuldu.

1993-cü ilin iyun ayında görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi ilə ilk dövrlərdə işini səmərəli qura bilməyən Dövlət Komissiyasının fəaliyyətində keyfiyyət dəyişikliyi yarandı. Dövlət Komissiyası düşmənin əlində olan

soydaşlarımızın xilas edilməsi yolunda bir sıra ciddi addımlar atdı, bu sahədə fəaliyyətdə olan beynəlxalq təşkilatlarla faydalı əməkdaşlığın əsasını qoydu.

Dövlət Komissiyasının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində növbəti tədbir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü ilin iyulunda imzaladığı Sərəncam oldu. Dövlət Komissiyası əsirlikdə olan vətəndaşların axtarılması və geri qaytarılması istiqamətində aparılan işlərdə Azərbaycan MTN-i, Müdafiə Nazirliyi, Hərbi Prokurorluqla daha sıx şəkildə işini qurdu. Hazırda Komissiya yerli dövlət orqanlarından, beynəlxalq təşkilatlardan, ayrı-ayrı şəxslərdən itkin düşən, əsir və girovlarla bağlı daxil olan sorğuları araşdırır, əsirlikdən azad olunmuş şəxslərlə söhbətlər apararaq onların məlumatlarını təhlil edir. Əsir və girovluqda olan azərbaycanlılarla ermənilərin vəhşi rəftarı əleyhinə mübarizədə Azərbaycan beynəlxalq təşkilatlarla, dünya dövlətləri ilə əməkdaşlıq edir. 1993-cü ildə “Hərbi əsirlərlə rəftar haqqında”, “Müharibə zamanı mülki əhalinin himayəsi haqqında” Cenevrə Konvensiyalarına qoşulan Azərbaycan BQXK ilə qarşılıqlı əlaqələrə malikdir. BMT, ATƏT, Ümumdünya Kilsələr Şurası, Avropa Kilşələr Şurası və Ümumdünya İslam Şurası nümayəndələri ilə aparılan danışıqlarda münaqişənin dinc yolla həll edilməsi, milliyyətinə fərq qoyulmadan əsir və girovlara yardım göstərilməsi, qadın və uşaqların heç bir şərt irəli sürülmədən azad edilməsi və s. məsələlər mütəmadi müzakirə olunur.

1993-cü ildə əsir və girovların taleyi məsələsini dövlətlərarası danışıqlar masasına çıxaran Azərbaycan bu məsələləri müntəzəm olaraq bəzi beynəlxalq təşkilatlar, ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələr, habelə qonşu dövlətlərlə müzakirəyə çıxarır. Əsir və girovların, itkin düşənlərin yerlərinin müəyyən edilməsi, onlara yardım göstərilməsi məsələsində Azərbaycan müstəqil beynəlxalq müdafiəçilər və Beynəlxalq Axtarış Qrupu ilə əməkdaşlıq əlaqələrinə malikdir, ölkəmiz habelə ayrı-ayrı ölkələrin vətəndaşlarından ibarət müstəqil ekspertlərin köməyindən də, yeri gəldikcə, bəhrələnir. Beynəlxalq qurumlarla əməkdaşlıq sayəsində Ermənistan tərəfindən bir çox hallarda saxlanılması inkar olunan azərbaycanlı əsirlərin yaxın adamları ilə görüşlər təşkil edilir ki, bu da müxtəlif illərdə əsirlikdə olan azərbaycanlıların müəyyən hissəsinə yardım göstərilməsinə şərait yaradır.

İlk dövrlərdə Dövlət Komissiyasının itkin düşmüş şəxslərlə bağlı hazırladığı siyahıda 7 minə yaxın həmvətənimizin adı olsa da, 2012-ci ilin dekabr ayının sonuna olan məlumata görə, hazırda 4031 Azərbaycan vətəndaşının taleyi ilə bağlı heç bir dəqiq məlumat yoxdur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlayandan bu günədək isə 1401 soydaşımız düşmən əsirliyindən xilas edilmişdir (159).

2004-cü ildə Ermənistan BQXK vasitəsi ilə Azərbaycana 414 erməninin adı olan itkinlər siyahısını təqdim etmişdi. Siyahının təhlili göstərmişdir ki, siyahıda adı olanlardan 25 nəfərinin bu münaqişəyə heç bir

aidiyyatı yoxdur. Belə ki, onlardan 23 nəfəri Ermənistanın öz ərazisində, 2 nəfəri isə Gürcüstanda itkin düşmüşdür. Bundan başqa, siyahıda olanlardan 211 nəfəri Azərbaycanın Dağlıq Qarabağ regionunun sakinləri, 197 nəfər Ermənistan, 3 nəfəri gürcüstan, 2 nəfəri Rusiya, 1 nəfəri isə İran vətəndaşıdır. Buna baxmayaraq Azərbaycan adı siyahıda olanların hər biri üçün şəxsi iş açmış, axtarış tədbirlərini həyata keçirmiş, əldə edilən məlumatlar BQXK və BİQ-ə təqdim edilmişdir.

Azərbaycan əsir və girovların, itkin düşən şəxslərin taleyi ilə bağlı müxtəlif ölkələrdə keçirilən beynəlxalq konfranslarda iştirak etməklə yanaşı, Bakıda da belə tədbirlərin təşkilini həyata keçirir. Belə tədbirlər zamanı ölkəmizi təmsil edən şəxslər tərəfindən əsir bə girovların taleyinə münasibətdə bəzi dövlətlərin və beynəlxalq təşkilatların laqeyd münasibəti tənqid edilir, erməni separatçılığının və terrorçuluğunun yalnız Azərbaycan üçün yox, həm də bəşəriyyət üçün təhlükə mənbəyi olduğu bildirilir.

Əsir və girovlarla bağlı beynəlxalq hüququn tələblərinə məhəl qoymayan Ermənistan əsir dötürülmüş azərbaycanlıları geri qaytarmamaq üçün müxtəlif bəhanələrdən istifadə edir, əsir və girovlar hərbi əməliyyat meydanlarından təhlükəsiz yerlərə aparılmalı olduqları halda onların öldürülməsinə üstünlük verilir, əsirlikdə olanlar üzərində müxtəlif təcrübələr aparılır, ayrı-ayrı ölkələrə satılır, əsirlərin bədən üzvlərindən qazanc mənbəyi kimi istifadə olunur.

Əsirlikdən və girovluqdan azad edlmiş vətəndaşlarla bağlı həyata keçirilən tədbirlər içərisində onların sosial reabilitasiyası əhəmiyyətli yer tutur. Erməni əsarəti dövründə müxtəlif yoluxucu xəstəliklərə məruz qalan adamlar filtrasiyadan keçirilir. Filtrasiya zamanı erməni əsirliyindən xilas olunanlar tibbi müayinədən keçirilir, xəstələrə kömək göstərilməsi məqsədi ilə onların müalicələri təmin olunur. Əsirlikdən azad olunmuş soydaşlarımızın filtrasiyaya cəlb olunması Azərbaycanın dövlət milli təhlükəsizliyinin təmin olunması üçün də əhəmiyyət daşıyır. Belə ki, ötən dövrdə, az da olsa, əsirlikdə olanlar içərisində Ermənistan xüsusi xidmət orqanları tərəfindən ələ alınmış adamlar da olmuşdur.

Filtrasiya tədbirləri, əsirlikdən qayıdanların dindirilmə prosesi erməni əsirliyində olan azərbaycanlıların alınıb-satılması yolu ilə qazanc məqsədi güdən, “müharibə biznesi” üzrə ixtisaslaşmış cinayətkarlar erməni qruplarının da üzə çıxarılmasına kömək göstərir. Ermənistanın dövlət strukturları ilə əlaqəyə malik olan ayr-ayrı şəxslər və qruplar əsirlikdə olan azərbaycanlıların yaxın adamları ilə əlaqə yaradaraq əsir düşənləri öz qohumlarına satmaqla pul qazanmağa çalışırlar. Yaxın adamlarını düşmənin əlindən xilas etməyə can atan bəzi Azərbaycan vətəndaşları da insan alveri ilə məşğul olan erməni cinayətkarlarının toruna düşə bilirlər. Bununla əlaqədar Dövlət Komissiyası əsir və girovların fərdi qaydada dəyişdirilməsinin qadağan edilməsini zəruri hesab etmişdir.

Azərbaycana təcavüz edən erməni qəsbkarları ölkəmizdə terror hadisələri törətməyə, ölkə əhalisi içərisində vahimə yaratmağa cəhd edirlər. Özlərinin insanlıqdan uzaq olan cinayətkar əməllərinin həyata keçirilməsində onlar Azərbaycan vətəndaşlarını da əməkdaşlığa cəlb edərək pozucu əməllərini davam etdirirlər. Erməni terrorçuları və onların əlaltıları tərəfindən quru, su, hava nəqliyyat vasitələrində törədilmiş terror hadisələri yüzlərlə günahsız insanın məhvi ilə nəticələnmişdir.

Tarixən Azərbaycan torpaqlarını zəbt etmək, azərbaycanlıları öz doğma yurd-yuvalarından didərgin salmaq iddiasında olan, Qərbi Azərbaycanın yerli əhalisi olan azərbaycanlıları deportasiya edən ermənilərin əsl simasını, terrorçuluğa hamilik edən dövlət siyasətini ifşa etmək, dünyaya nümayiş etdirmək, beynəlxalq aləmə və dünya xalqlarına bu ölkənin təhlükəli dövlət siyasəti yürütdüyünü göstərmək ötən dövrdə ölkəmizin istər daxili, istərsə də xarici siyasət konsepsiyasında əhəmiyyətli yer tutmuşdur.

## ƏDƏBİYYAT

1. Arif Emin. Erməni iddialarının siyasi mahiyyəti. Bakı, Nurlan, 2006,.

2. Arzumanlı V., Mustafa T. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, Qartal, 1998, 279 s

3 “Azərbaycan” qəzeti, 1991-2005-ci illər.

4. Azərbaycan Respublikasının Qaçqınlar və Məcburi köçkünlər haqqında normativ hüquqi sənədlər toplusu. Bakı, Borçalı, 2004, 527 s.

5. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin “Azərbaycanlıların soyqırımı haqqında” 26 mart 1998-ci il tarixli Fərmanı / “Azərbaycan” qəzeti, 27 mart, 1998.

6. Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XX-XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya. Bakı: Elm, 2003,

7. Erməni terroru. Red. T.Sadıqov və b. Bakı: İndiqo, 2007,

8. Əliyev H.Ə. Müstəqillik yollarında. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məruzələr, müraciətlər. 7 cilddə, Bakı: Azərnəşr, 1997-2000.

**Gülşən Mustafayeva,**

Gəncə Dövlət Universitetinin baş müəllimi.
gulshen-mustafayeva@mail.ru

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN GÖMRÜYÜNÜN İNKİŞAFINDA ROLU

Azərbaycan Respublikası 18 oktyabr 1991-ci ildə müstəqillik əldə etdikdən sonra 30 yanvar 1992-ci ildə dövlətçiliyin mühüm atributlarından biri olan Dövlət Gömrük Komitəsi yaradıldı. Xarici iqtisadi fəaliyyətin dövlət inhisarında saxlanıldığı keçmiş SSRİ-nin tərkibində olmuş Azərbaycan üçün bu sahədəki strateji və taktiki tədbirlər tamamilə yeni olmaqla, demək olar ki, sıfır səviyyəsindən başlanılmalı idi. Bu tədbirlər kompleks xarakterli olmalı və onların həyata keçirilmə mərhələləri müəyyənləşdirilməli idi. Lakin, o zaman Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyət nəticəsində köklü tədbirlər planının işlənib hazırlanmasına, mütərəqqi və səmərəli gömrük siyasətinin aparılmasına nail olunmadı. Ölkə daxilində və dövlət sərhədlərində iş qabiliyyətli gömrük orqanları şəbəkəsinin yaradılması və onların texniki təminatı, gömrük xidməti kadrlarının hazırlanması, gömrük qanunvericiliyinin hazırlanması, qəbul edilməsi və tətbiqi, gömrük işçilərinin sosial məsələlərinin həlli kimi mühüm tədbirlər ön plana çəkilmədi. 1993-cü ilin iyun ayında Azərbaycanda yaranmış gərginliyi aradan qaldırmaq, ölkəni parçalanmaqdan qurtarmaq, vətəndaş müharibəsinin qarşısını almaq, ölkənin müstəqilliyini və

suverenliyini itirmək təhlükəsini aradan qaldırmaq, ümumiyyətlə, Azərbaycanın bir dövlət kimi məhv olmasının qarşısını almaq üçün xalqımız öz böyük oğlunu Heydər Əlirza oğlu Əliyevi ikinci dəfə hakimiyyətə təkidlə dəvət etdi. Ölkədəki problemləri zərgər dəqiqliyi tilə bir-bir həll edən möhtərəm Heydər Əliyev cənabları, 1995-ci ildən başlayaraq gömrük orqanlarının işinin yenidən qurmağa başladı. Əvvəlcə Dövlət Gömrük Komitəsinin rəhbərliyini dəyişdirdi. Gömrük sistemi və infrastrukturu yenidən quruldu. Bütövlükdə gömrük işinin məzmununa yenidən baxıldı. İnkişaf etmiş ölkələrin gömrük təcrübəsinin öyrənilməsi, beynəlxalq tələblərə cavab verən gömrük qanunvericiliyinin yaradılması və tətbiqi, Azərbaycan Respublikası gömrük xidmətinin digər ölkələrin gömrük xidmətləri ilə sənədlərin və gömrük əməliyyatlarının unifikasiyası (vahid sistemətirilməsi) əsasında yaxınlaşması kimi mühüm prinsiplər bu yeniləşmənin əsasını təşkil etdi. Təşkilati tədbirlərlə bir vaxtda dövlətin gömrük siyasətinin də formalaşdırılmasına başlandı. Ölkənin gömrük qanunvericiliyi təkmilləşdirildi. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi və "Gömrük Tarifihaqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Məcəllədə, gömrük orqanlarının qarşısında qoyulan vəzifələrdən çıxış edilərək, gömrük işinin əsas prinsipləri müəyyənləşdirildi. Məhz gömrük orqanları bu Məcəllənin müddəalarına görə, hüquq-mühafizə orqanı statusu aldı.

Gömrük tarifi və valyuta tənzimlənməsi haqqında qəbul edilən qanunlar, gömrük orqanlarına valyuta nəzarətini həyata keçirmək hüququnu verdi, habelə gömrük rüsumlarının dəqiq hesablanması və vaxtında yığılaraq dövlət büdcəsinə köçürülməsi tələbini qoydu.

Dövlət Gömrük Komitəsi üzrə dövlət büdcəsinə köçürülən gömrük ödənişlərinə və mal dövriyyəsinə dair
CƏDVƏL

| İllər | Dövlət büdcəsinə köçürülən gömrük ödənişləri (bütün növləri) min manatla | Respublika büdcəsində xüsusi çəkisi (faizlə) | İdxalın həcmi (min ABŞ dol.) | İxracın həcmi (min ABŞ dol.) | Saldo (min ABŞ dol.) |
|---|---|---|---|---|---|
| 1994 | 3479,8 | 3,2 | 530 277,0 | 508 110,8 | - 22 166,2 |
| 1995 | 13 154,5 | 4,3 | 589 972,9 | 497 064,9 | - 92 908,0 |
| 1996 | 54 512,0 | 13,5 | 944 526,7 | 736 518,1 | -208 008,6 |
| 1997 | 85 904,9 | 16,7 | 767 447,0 | 756 759,5 | - 10 687,5 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1998 | 112 330,6 | 24,1 | 1 341 150,5 | 593 813,5 | -747 337,0 |
| 1999 | 133 079,2 | 23,7 | 1 010 580,6 | 902 960,6 | -107 620,0 |
| 2000 | 143 921,3 | 20,1 | 1 170 868,2 | 1 752 226,7 | 581 358,5 |
| 2001 | 164 441,6 | 24,0 | 1 433 696,3 | 2 318 213,9 | 884 517,6 |
| 2002 | 184 368,7 | 20,3 | 1 664 148,6 | 2 166 846,3 | 502 697,7 |
| 2003 | 212 246,9 | 17,3 | 2 619 283,7 | 2 581 204,5 | - 38 079,2 |

Gömrük qanunvericiliyinin inkişafında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 27 oktyabr 1998-ci il tarixli 6 saylı Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında” Əsasnamə mühüm yer tutmuşdur. Əsasnaməyə görə, Dövlət Gömrük Komitəsi Azərbaycan Respublikasında gömrük işi sahəsində dövlət siyasətini həyata keçirən Mərkəzi İcra Hakimiyyəti orqanıdır. Heydər Əliyevin təklifi ilə gömrük siyasətinin strateji məsələlərinin müəyyən edilməsi mərhələsində Dövlət Gömrük Komitəsinə önəmli yer verildi. Belə ki, vahid gömrük sisteminin yaradılması; xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi; milli bazarın xarici rəqabətin zərərli təsirindən qorunması; keyfiyyətsiz malların idxalının qarşısının alınması; ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi; qaçaqmalçılıq və gömrük qaydalarının pozulması hallarının qarşısının alınması və aradan qaldırılması; Azərbaycan xalqının bədii və arxeoloji sərvətlərinin,

intellektual mülkiyyətinin, nadir flora vəfauna nümunələrinin qeyri-qanuni dövriyyəsinin qarşısının alınması; valyuta əməliyyatlarına mükəmməl nəzarət sisteminin yaradılması; müasir mərhələdə gömrük siyasətinin hazırlanması və s. məsələlərdə Dövlət Gömrük Komitəsinə verilmiş səlahiyyətlər Heydər Əliyevin nə qədər uzaqgörən, bacarıqlı və əvəzolunmaz dövlət xadimi olmasını bir daha sübut edir.
Gömrük orqanlarının yaradılmasının beş illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyev gömrük sisteminin inkişafı və təkmilləşdirilməsi problemlərinə toxunaraq, Dövlət Gömrük Komitəsinin qarşısında duran həll olunmalı məsələləri belə xarakterizə etmişdir: “Azərbaycan müstəqil bir dövlət kimi daim yaşayacaq. Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirmək bütün istiqamətlərdə aparılan tədbirlər nəticəsində ola bilər. Bu istiqamətlərdən biri də yüksək səviyyəli gömrük xidmətinin yaranmasıdır. Onun üçün bir daha qeyd edirəm, siz dünya təcrübəsindən istifadə etməlisiniz. Bizim Azərbaycanda nə gömrük məktəbi, nə gömrük universiteti, nədə gömrük akademiyası olubdur... Gömrük işçilərinin əksəriyyəti, cürbəcür ixtisaslar alıbdır. Amma sırf gömrük ixtisası üzrə təhsil alanadamlar çox azdır. Siz bu təhsili də işləyə-işləyə almalısınız. Yəni işləyə-işləyə gömrük elminin və gömrük biliklərinin mənimsənilməsi sahəsində özünüzü təhsilləndirisiniz, təkmilləşdirirsiniz. Şübhəsiz ki, Gömrük

Komitəsinin gərək xüsusi iş planı olsun. Gömrük Komitəsinin öz işçilərini təkmilləşdirmək, onlara xüsusi gömrük təhsili vermək, onların təcrübəsini artırmaq üçün gərək birillik, ikiillik, üçillik planı olsun və onun əsasında siz təhsil işi aparmalısınız. Bu, sizin sahəyə başqa sahələrə nisbətən ən çox lazımdır. Ona görə də siz bunu etməlisiniz. Həqiqi gömrük işini təşkil etmək üçün iki əsas şərt lazımdır. Birincisi, gömrük işçisi gərək bilikli olsun, öz peşəsini yaxşı mənimsəmiş adam olsun, mənəviyyatca təmiz olsun, öz işinə sadiq olsun, Vətəninə, ölkəsinə sadiq olsun, müstəqil Azərbaycanın iqtisadiyyatının möhkəmləndirilməsinə sadiq olsun. İkinci tərəfdən, gərək onun təcrübəsi ilə, biliyi ilə yanaşı, maddi-texniki bazası, müasir texnikası, ləvazimatları olsun. Bunları yaratmaq lazımdır. Bu da sizin vəzifənizdir...” (“Azərbaycan” qəzeti, 31 yanvar 1997-ci il).

Dövlət Gömrük Komitəsinin rəhbərliyi Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin bu çıxışını özünün fəaliyyət Proqramı kimi qəbul edərək, bu dahi insanın fikirlərini ardıcıl olaraq həyata keçirməyə başladı. Prezidentin tapşırığına uyğun olaraq gömrükxanaların maddi-texniki bazası müasirləşdirməklə bərabər, milli dildə ilk tədris vəsaitləri hazırlanmağa başlanıldı.

Gömrük işinin təşkil edilməsi və gömrük siyasətinin formalaşdırılması ilə bağlı Ümummilli liderimiz H.Ə.Əliyevin imzası ilə aşağıdakı sənədlər qəbul edilmişdir:

1. «BYD Kitabçası tətbiq edilməkləbeynəlxalq yük daşımaları haqqında» gömrük Konvensiyasının təsdiq edilməsi barədəAzərbaycan Respublikasının Qanunu12 mart 1996-cı il.

2. «Sərhədlərdə yüklərin nəzarətdən keçirilməsi şərtlərinin razılaşdırılması haqqında» Beynəlxalq Konvensiyaya qoşulmaq barədəAzərbaycan Respublikasının Qanunu11 fevral 2000-ci il.

3. "Gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiq edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında" Beynəlxalq Konvensiyaya və onun I-X Əlavələrinə qoşulmaq barədəAzərbaycan Respublikasının Qanunu19 fevral 2002-ci il.

4. "Yol nəqliyyat vasitələrinin ticarət və kommersiya məqsədi ilə müvəqqəti idxalının

Gömrük Konvensiyası»na qoşulmaq barədəAzərbaycan Respublikasının Qanunu11 fevral 2000-ci il.

5. "Azad ticarət zonasının yaradılması haqqında Sazişin iştirakçısı olan dövlətlər arasında dövriyyədə olan əmtəələrin gömrük rəsmiləşdirilməsi vəgömrük nəzarəti qaydası haqqında» Sazişin təsdiq edilməsi barədəAzərbaycan Respublikasının Qanunu1 fevral 2000-ci il.

6. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, 1997.

7. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanunu, 1995.

8. “Gömrük orqanlarında xidmət haqqında əsasnamənin təsdiq edilməsi barədə” AzərbaycanRespublikasının Qanunu. 7 dekabr 1999-cu il.

9. “Azərbaycan Respublikası gömrük orqanlarının bayrağı haqqında” Azərbaycan RespublikasınınQanunu. 1 iyun 2001-ci il.

10. “Azərbaycan Respublikası gömrük orqanlarının tanınma nişanı haqqında” AzərbaycanRespublikasının Qanunu. 1 iyun 2001-ci il.

11. “Tərkibində əqli mülkiyyət obyektləri olan malların gömrük sərhədindən keçirilməsi üzərində gömrük nəzarəti Qaydaları haqqında” Qərarın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu 12 fevral 2002-ci il.

12. Azərbaycan Respublikası Gömrük Komitəsinin işi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 9 yanvar 1995-ci il.

13. “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun və Əsasnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı 27 oktyabr 1998-ci il.

14. “Azərbaycan Respublikasında xarici ticarətindaha da liberallaşdırılması haqqında”

Azərbaycan Respublikası Prezidentinin Fərmanı 24 iyun 1997-ci il.

15. “Ozondağıdıcı maddələrlə əlaqədar idxal-ixrac fəaliyyətinin dövlət tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı 21 dekabr 2001-ci il.

16. “Azərbaycan Respublikasında sərhəd-nəzarət buraxılış məntəqələrinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üzrə Komissiya haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncami 20 may 2000-ci il.

Ölkə Prezidenti olarkən, bütün türkdünyasının lideri səviyyəsinədək yüksəlmiş, İslam aləminin liderlərindən biri olan Heydər Əliyevin təklifi və təşəbbüsü ilə həyata keçirilmiş, Azərbaycan Respublikasının iqtisadi və siyasi həyatında mühüm əhəmiyyət kəsb edən aşağıdakı xidmətləri qeyd etmək lazımdır:

1. Heydər Əliyevin adını daşıyan Binə hava limanının tikilməsi. Burada gömrük işi dünya standartları səviyyəsində qurulmuşdur;

2. Naxçıvanda beynəlxalq stadartlara cavab verən hava limanının tikilməsi və orada müasir tələblərə cavab verən gömrük işinin təşkili;

3. Bakı, Naxçıvan, Biləsuvar, Astara, Xaçmaz, Tovuz, Lənkəran, Qusar, Qazax və Balakən də müasir standartlara cavab verən gömrük orqanlarının binalarının və keçidlərinin tikilməsi və ya rekonstruksiyası;

4. Gömrük sisteminin təmərküzləşməsi, vahid uniforma və digər atrubutların hazırlanıb, qəbul edilməsi;

5. Dövlət Gömrük Komitəsinin dünya arenasında özünəməxsus yertutması və Ümumdünya Gömrük Təşkilatında aparıcı gömrük orqanlarından birinə çevrilməsi;

6. Azərbaycan sərhədlərinin möhkəmləndirilməsi ilə bağlı gördüyü tədbirlərin nəticəsində qaçaqmalçılığın və narkotik vasitələrin ölkə ərazisindən keçirilməsinin tamamilə qarşısının alınması;

7. Gömrük terminallarının yaradılması;

8. Mütərəqqi gömrük siyasətinin formalaşdırılması;

9. MDB məkanında ən yaxşı, müasir texniki təchizatı olan gömrük sisteminin yaradılması;

10. Dövlətin mühüm atributlarından biri olan gömrük sisteminə sərbəst fəaliyyətin qazandırılması və onun mühüm ideologiyaya çevrilməsi;

11. Azərbaycan Respublikasının müstəqilliyinin və suverenliliyinin qorunması sahəsində Dövlət Gömrük Komitəsinin mühüm nailiyyətlər qazanması.

Müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyev tərəfindən əsası qoyulmuş gömrük siyasətini və gömrük orqanlarının davamlı inkişafını onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Azərbaycanı işıqlı gələcəyə və nurlu sabahlara inamla aparan, bütün Qafqazın vahid lideri, İlham Əliyev cənabları çox uğurla həyata keçirir.

**İstifadə olunmuş mənbələr:**

1) "Heydər Əliyev və Azərbaycanda gömrük sisteminin təkamülü". (İqtisadi təhlükəsizlik konsepsiysı üzrə). K. F. Heydərov. Bakı, Ozan, 2000

2) "Gömrük işinin əsasları". K. F. Heydərov. Ali məktəblər üçün dərslik. Bakı, Qanun, 2004

3) "Gömrük rəsmiləşdirilməsi"K.F.Heydərov, A.Ə.Əliyev, C.Q.Nuriyev, S.M.Mehdiyev. Ali məktəblər üçün dərslik. Bakı, Qanun, 2006.

4) "Gömruk işinin təşkili və idarəedilməsi". Ali məktəblər üçün dərslik (yenidən işlənmiş və tamamlanmış variantda).C.Q.Nuriyev, A.Ə.Əliyev, M.C.Atakişiyev.Bakı, 2009

5) "Azərbaycanin Gömrük tarixi". Cümşüd Nuriyev. Bakı – 2009.

6) www.heydar-aliyev.org - Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əlirza Oğlu Əliyev

7) www.dgk.gov.az (www.customs.gov.az) - Azərbaycan RespublikasiDövlət Gömrük Komitəsi

8) www.e-qanun.az - Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Normatin hüquqi aktların vahid internet elektron bazası.

**Muraz Səəddin oğlu Quliyev,**

Dövlət Gömrük Komitəsi Tovuz Gömrük
İdarəsinin Statistika və AİS şöbəsinin rəisi
murazq@gmail.com, qmuraz@mail.ru,
muraz.quliyev@customs.gov.az

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİ

*ANA DİLİMİZ MÜSTƏQİL AZƏRBAYCANIN, AZƏRBAYCAN XALQININ ƏN BÖYÜK SƏRVƏTİDİR.*

**HEYDƏR ƏLİYEV**

Doğrudan da, ana dili hər bir xalqın, millətin xəzinəsi, sərvətidir. Hər bir xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq, xalqın qabaqcıl adamlarının, elm, bilik, xadimlərinin fəaliyyəti nəticəsində olur.

Heydər Əliyev məhz elə bu dahi şəxsiyyətin sayəsində, milli varlığımızın əsas simvolu, göstəricisi olan ana dilimiz bu gün yüksək inkişaf səviyyəsinə çatmışdır. Azərbaycan Respublikasında ana dilimizin istifadəsinin genişlənməsinə, ümumilikdə bu sahəyə xüsusi qayğı əsasən vətəni canından çox sevən müdrik dövlət xadimi Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra geniş vüsət almışdır.

XX əsrin II yarısında Azərbaycan dilinin hərtərəfli inkişafı ümumiişlək dilə, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın böyük dövlətlərinin,beynəlxalq təşkilatlarının kürsülərində səslənməsi, bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır.

1969-1982-ci illərdə Heydər Əliyev SSRİ-nin tərkibində olan Azərbaycana rəhbərlik etmişdir.Komminist

rejiminin sərt qaydalarına baxmayaraq, xalqımızın mədəniyyəti,mənəviyyatı ilə bağlı məsələlər Heydər Əliyev tərəfindən ətraflı şəkildə müzakirə olunmuş və milli tərəqqiyə yönələn mühüm əhəhmiyyətli qərarlar qəbul olunmuşdur. O dövürdə ölkədə milli dillərin sıxışdırılması siyasətinin yeridildiyi bir zamanda ulu öndər ana dilinin inkişafına xüusi diqqət yetirirdi. Hər bir xalqın milli mənəvi dəyəyrlərinin yaradılması və inkişaf etdirilməsində ana dilinin müstəsna rol oynadığını deyən türk dünyasının lideri Heydər Əliyev Azərbaycan dilinin daha da zənginləşdirilməsi, dövlət dili statusunun qorunması sayəsində bir-birinin ardınca mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirirdi. Ana dilində dərsliklərin və kitabların nəşrinin genişləndirilməsi, dilçi alimlərə qayğının göstərilməsi, belə tədbirlərdən idi. Hələ sovet dövründə kəskin təqiblərə və təzyiqlərə baxmayaraq ümummilli lider Heydər Əliyev ana dilinin inkişafına qətiyyətlə çalışırdı. Ulu öndər sovet rejminin tuğyan etdiyi bir vaxtda deyirdi ki, konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Beləliklə, SSRİ konstitusiyası qəbul edildikdən sonra müttəfiq Respublikaların konstitusiya layihələri dərc olunaraq ümumxalq müzakirəsinə verildi. Azərbaycan konstitusiyası layihəsinin ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş iclasda ulu öndər Heydər Əliyev qətiyyətlə bildirmişdir ki, “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir”.

Bu təklif yekdilliklə qəbul edildi və Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dili oldu.

Təəssüflər olsun ki, müstəqillik əldə etdikdən sonra hakimiyyətə gələn və idarə etməkdə naşı olan dairələr ana dilimiz və milli hakimliyimizlə bağlı ümummilli maraqlarımıza zidd olan siyasət yürütdü. Lakin 1993–cü ildən iyununda hakimiyyətə gələn və milli məclisin sədri kimi fəaliyyətə başlayan Heydər Əliyev "Azərbaycan dili" və ya "Türk dili" məsələsini 1995-ci ilin oktyabr, noyabr aylarında xalqın müzakirəsinə verdi. Müzakirələrdə ziyalılarla yanaşı sadə xalq kütləları də iştirak edirdi. Qızğın müzakirələrdən sonra 1995-ci ilin 12 noyabrında Milli Məclisdə böyük mütəfəkkir müdrikliyi ilə Heydər Əliyev müzakirələrə yekun verdi. Nəhayət bu məsələ Azərbaycan Respublikası konstitusiyasının 21-ci maddəsində öz əksini belə tapdı". Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir".

Hər bir xalqın özünəməxsusluğunu müəyyən edən başlıca ünsürlərdən biri onun dilidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçidiyi dil siyasəti, onun dövlət quruculuğu siyasətinin üzvi tərkib hissəsidir. Hər zaman dilimizin saflığı və zənginliyinin qorunmasında güclü siyasət aparan dahi siyasətçi öz nitqinin gözəlliyi ilə hamını valeh edirdi. Doğma ana dilimiz onun nitqində daha gözəl və axıcı səslənir. Azərbaycan dilinin ana

dilimizin nə qədər zəngin ahəngdar olduğunu onun nitqi bir daha sübut edir. Heydər Əliyevin nitqi dağlardan axan şəffaf su qədər təmizdir, ana laylası qədər ülvidir. Ana südü qədər şəfavericidir.

Böyük şəxsiyyət, dünya şöhrətli siyasətçi müstəqil Azərbaycan dövlətinin xilaskarı ümumilli lider Heydər Əliyev haqqında yazmaq şərəfli və məsuliyyətlidir. Tarixdə özünün yeri olan xüsusi missiyalar yerinə yetirmək qüdrətinə malik olan dahilər əməllərinə görə bir-birinə bənzəsələr də, onların öz yaradıcılıq üslubları və xüsusi dəstxətləri olur. Ulu öndər Heydər Əliyevin də orjinal yaşam tərzi olmaqla yanaşı onda böyük dövlət adamlarına xas olan nadir keyfiyyətlər cəmləşmişdir. Həm sovet dövründə, həm də Azəribaycan müstəqillik qazandıqdan sonra ulu öndər Heydər Əliyev Azərbaycan dilinin qorunmasına və inkişafına xüsusi diqqət yetirmişdir.

1991-ci ildə latın qrafikalı Azərbaycan əlifbası qəbul olunsada, o, bütün gücü ilə işləyə bilmirdi. Yalnız ümumilli lider Heydər Əliyev bu məsələnin birdəfəlik həllinə nail olmuşdur. 2003-cü ildə yanvar ayının 2-də ümumilli lider Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının dövlət dili haqqında Azərbaycan Respublikasının qanunu qüvvəyə mindi. Həmin qanunda dövlətin ana dilinə qayğısı sahəsində əsas vəzifələr dəqiq şəkildə göstərilirdi. Heydər Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçrilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli sərəncamı

məqsədəuyğun tədbirlərdəndir. 2001-ci ilin 18 iyununda ümummilli liderimiz “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi” haqqında fərman imzalamışdır. Bu tarixi sənəd diıimizin inkişafı və tətbiqi sahəsində meydana çıxan problemlərin həllində mühüm rol oynamışdır. Həmin fərmanda Azərbaycan Prezidentinin yanında Dövlət Dil Komissiyası yaradılması nəzərdə tutulurdu. Dünyanın heç bir yerində analoqu olmayan belə bir qrupun yaradılması ana diıinin tətbiqi işinin təkmilləşdirilməsi işinə daha səmərəli şəkildə nəzarət etmək məqsədi daşıyırdı. 2001-ci ilin avqustun 9-da Azərbaycan prezidenti yaninda yeni fərman “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqına” mühüm bir sənəd imzalandı.Bu fərmana əsasən Azərbaycan dili və günü təsis edildi.

Göründüyü kimi, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dilinin inkişafında gördüyü işlər əvəzolunmazdır. Onun ana dili haqqında dediyi kəlamlar ən gözəl söz inciləridir. Heydər Əliyev ana dilimiz haqqında demişdir: “Azərbaycan dili çox zəngin və ahəngdar dildir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm. Müstəqil Azərbaycan Respublikasinın gələcəyi üçün ən əhəmiyyətli vasitələrdən biri ana diimizin dövlət dilimizin inkişaf etdirilməsidir”.

Başqa kəlamda isə Heydər Əliyev belə demişdir:

“Müstəqil Azərbaycan respublikasının gələcəyi üçün ən gözəl vasitələrdən biri ana dilimizin, dövlət dilimizin

inkişaf etdirilməsidir. Azərbaycan dilinin əsas sahibləri şair və yazıçılarımızdır, bizim qələm çalan ziyalılarımızdır”.

Bəli! Ümumilli lider türk dünyasının ulu öndəri Heydər Əliyev hər zaman ziyalılara yüksək qiymət vermişdir. Çünki o, çox gözəl bilirdi ki, xalqın dilinin, mədəniyyətinin inkişaf etdirilməsi üçün ziyalı təbəqənin inkişafına xüsusi diqqət yetirilməlidir. Bundan başqa dahi siyasətçi hələ Sovet dövründə ali məktəblərə Ana dili və Ədəbiyyat ixtisası üzrə tələbə qəbulunun sayını artırmışdır.Azərbaycan müstəqillik qazandıqdan sonra isə bütün ixtisas qruplarında Azərbaycan dili fənnindən imtahan verilir. Məhz buna görə də Azərbaycan dilçiliyi sahəsində görkəmli alimlər yetişir.

Heydər Əliyev bunu öz nitqində belə ifadə etmişdir:

“Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində olur. Dil böyük sərvətdir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkin deyildir”.

Göründüyü kimi, ulu öndər Heydər Əliyev ana dilimiz olan Azərbaycan dilini yüksək qiymətləndirmişdir. O, öz çıxışlarında dilimizin nə qədər səlis və hikmətli olduğunu sübut etmişdir. Elə bizim ana dilimizi gözəlləşdirən Heydər Əliyev nitqidir. Azərbaycan dilinin gözəlliyini zənginliyini bilmək üçün Heydər Əliyevin çıxışlarını dinləmək lazımdır. Sanki, ana dilimiz onun dilində

yaranmış, formalaşmışdır. Haradan qaynaqlanır bu qədər axıcılıq, rəvanlıq. Əlbəttə ki, vətənə, doğma yurda bağlılqdan. Onun dilində bütün kəlmələr şirindir. Çünki bu kəlmələr səmimi fikirlərin məhsuludur. Bütun kəlmələr sanki bir xəzinədir.Mən fəxr edirəm ki, Mən Azərbaycanlıyam ifadəsi kimi.

**Mənbələr:**

1) Ayşən Sadıllı, Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili, Bakı – Mütərcim – 2011.

2) *Mübariz Yusifov*, "Dahi şəxsiyyətin nitq fenomenli-yi" (1997).

**Səidə Kamil qızı Mürsəlova**,

Göygöl rayon Ə.Məmmədov adına Üçtəpə kənd tam orta məktəbin Azərbaycan dili və ədədbiyyat müəllimi

## HEYDƏR ƏLİYEV MƏKTƏBİ

Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır və Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı yüksəklərə qaldıracaqdır.

**Heydər Əliyev**

Tarixdə elə şəxsiyyətlər olur ki, onların həyat və fəaliyyəti bütöv bir xalqın, dövlətin inkişaf yolunu müəyyənləşdirir. Illər keçdikcə böyük şəxsiyyətlər dövrünün fövqünə yüksələrək, layiq olduqları yeri tuturlar. Lakin bəzən şəxsiyyətin tarixdə yerini müəyyənləşdirmək üçün zamana ehtiyac qalmır. Bu cür fenomenal insanlar bütövlükdə xalqın, millətin adını özündə ifadə edirlər. Belə nadir şəxsiyyətlərdən biri ötən əsrin yeni minilliyin görkəmli, siyasi və dövlət xadimi, xalqımızın ümummilli lideri, dahi şəxsiyyət Heydər Əliyevdir.

Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır.

Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin

taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. O, siyasi və dövlət xadimi, xalqın lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Bütün dünya azərbaycanlıları ümummilli liderin heyranlıq doğuran siyasi fəaliyyətini həmişə alqışlamışlar.

Azərbaycan xalqı milli dövlətçiliyin dağılmaq təhlükəsi qarşısında qaldığını gördüyü və artıq ən ağır günlərini yaşadığı bir zamanda – 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini tələb etmiş və həmin vaxtdan taleyini yenə Heydər Əliyevə etibar etmişdir. Xalqının belə bir dar gündə qaldığını görüb onun təkidli dəvətini qəbul edən Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtmışdı. Xalq onun bu qayıdışını ümid və sevinclə qarşılamış, həmin günü isə Milli Qurtuluş günü kimi müstəqil Azərbaycanın tarixinə yazmışdır.

Heydər Əliyev birinci dəfə hakimiyyətə gələndə, yəni 1969-cu illərin axırlarında da Azərbaycan iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü yaşanmışdı.

Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdə də yenə özünün siyasi bacarığı gücünə ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi pərakəndəlikdən xilas edə bilmiş və cəmiyyətin məqsədini, qayəsini öz varlığında, özünün güclü siyasətində təzahür etdirərək, doğma xalqını yenidən vahid bir məfkurə ətrafında

səfərbər edib, onun qəlbində sabaha inam hissi yaratmağı bacarmışdı.

Bütün bu illər ərzində əsl rəhbər kimi məhz Heydər Əliyev Azərbaycan həqiqətlərini qətiyyətlə bütün dünyaya tanıda bilmişdir. Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyi bacarmışdır. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi arxada qalmışdır.

Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir. Ümumxalq məhəbbəti qazanan Heydər Əliyevin bitməz-tükənməz enerjisi xalqı yaradıcılıq uğurlarına ruhlandırmışdır.

Tarixin yetirdiyi görkəmli şəxsiyyətlərdən olan Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin və iki minilliyin qovuşuğundakı Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoymuşdur. Heydər Əliyevin zəkası bütün sədləri yararaq və qarşıya çıxan heç bir çətinliyə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır. Olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirən Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini və edə bilməyəcəyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX vəXXI əsrlərin tanınmış siyasi xadimləri sırasında həmişəlik öz

layiqli yerini tutmuşdur. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənəni düşünmüşdür. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Heydər Əliyev bir dövlət başçısı kimi Azərbaycanın ən çətin anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdır. Təbiətin ona bəxş etdiyi bir çox nadir keyfiyyətlər sayəsində Heydər Əliyev uzaqgörən şəxsiyyət kimi tarixi hadisələrin gedişini irəlidən müəyyən edə bilir, milli tarix üçün olduqca böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zamanı əsl vətənpərvər mövqeyi nümayiş etdirir, tam qətiyyətlə hərəkət etməyi bacarırdı.

Azərbaycan dövlətinin başçısı, Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin çoxəsrlik dövlətçiliymiz tarixində müstəsna yeri vardır. Heydər Əliyevin fəliyyəti öz əhəmiyyəti baxımından Azərbaycanın hüdudlarından çox-çox kənarlara çıxır. Müasir dövürdə nəinki Azərbaycanda,hətta bütün postsovet məkanında, eləcə də dünyada gedən prosesləri Heydər Əliyevin şəxsiyyətindən və fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyildi.

Müasir Azərbaycanda dövlət quruculuğunun,iqtisadi dirçəlişin, siyasi şüurun, siyasi həyatın son otuz ildən artıq bir dövrünü əhatə edən zaman kəsiyi böyük siyasət xadimi kimi tanınan və dərin zəkaya, ensiklopedik biliyə, geniş dünya görüşünə malik olan tarixi şəxsiyətin-Heydər

Əliyevin adı, əməli fəaliyyəti ilə gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır.

Heydər Əliyev zəmanəmizin böyük filosofu və mütəfəkkiri idi. O,öz zəkası, siyasəti və zəkası sayəsində yeni Azərbaycanı yaratmış, onu gələcəyə aparan yolları müəyyən etmişdir. Heydar Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başlamışdır. Onun fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin ölkəmizə münasibətinin əsaslı sürətdə dəyişilməsinə nail ola bilmişdir.

Heydər Əliyevin 1992-ci ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyas ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi və mphkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərmişdir. O,bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanmışdır.

Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək yaşamaq məcburiyyətində qalmış azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində Heydər Əliyevin müstəsna xidmətləri vardır. O, dünya azərbaycanlıların təşkilatlanması və onların bir Vətən –müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzimlə səy göstərmiş və bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul etmişdir.

Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir.

Əliyev taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxmışdır.

Azərbaycan xalqının milli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində yaşayacaqdır.

Azərbaycan xalqı tarixi bir hadisəni-müstəqil dövlətimizin memarı və qurucusu,dünya azərbaycanlarının milli iftixarı, təhsil quruculuğu stragiyasının müəllifi, uşaqların, gənclərin böyük dostu, ümummilli lider Heydər Aliyevin anadan olmasının 90-cı ildönümünü qeyd etməyə hazırlaşır.Ölkəmizin ictimai-siyasi və mədəni həyatının bütün sferalarında olduğu kimi,təhsil sahəsində də bu əlamətdar günü ulu öndərin adına və əməllərinə layiq səviyyədə qarşılamaq üçün silsilə tədbirlər planı işlənib ardıcıl olaraq həyata keçirilməkdədir.

Bu gün nə qədər ağır olsa da, böyük siyasətçi və dövlət adamı Heydər Əliyev haqqinda keçmiş zamanda danınşmaq məcburiyyətindəyik. Bu dahi şəxsiyyətin zəngin həyat yolu, coşqun siyasi və dövlətçilik fəaliyyəti barədə minlərlə görkəmli siyasətçinin dediklərinə nəsə əlavə etmək çox çətin, məsuliyyətli olduğu qədər çox şərəflidir. İnanıram ki, Heydər Əliyev barədə nə qədər yazılsa da azdır. Çünki Heydər Əliyev fenomenal şəxsiyyət, dünyamiqyaslı dövlət adamı, siyasət nəhəngi idi. O, sözün həqiqi mənasinda uzaqgörən İNSAN, müdrik

rəhbər idi. Onun iti zəkası, dərin intellekti, yenilməz məntiqi, aydın nitqi, fenomenal yaddaşı, geniş dünyagörüşü hamıda heyrət doğururdu. Heydər Əliyevin dünyanın aparıcı siyasi və dövlət xadimləri arasında müstəsna yeri vardı. O, hamının nümunə götürə biləcəyi tarixi şəxsiyyət idi.

Ümummilli lider Heydər Əliyevin zəngin irsi xalqımızın milli sərvətidir və bu tükənməz xəzinədən hamıya-hər bir siyasətçiyə, dövlət adamına, iqtisadçıya, diplomata, elm, təhsil və mədəniyyət xadiminə, bütövlükdə hər bir ölkə vətəndaşına pay düşür. Tarixi həqiqətdir ki, hər bir azərbaycanlı, o cümlədən, çoxminli təhsil işçiləri, çoxmilyonlu şagird və tələbə kontingenti həm bu gün, həm də gələcəkdə indi artıq tarixə qovuşmuş bu xəzinədən- dahi Heydər Əliyev irsindən bəhrələnəcək, bu və ya digər taleyüklü problemin həllində Heydər Əliyev zəkasının nurundan, zəngin və çoxcəhətli irsindən faydalanacaq.

Böyük iftixar hissi ilə bildirirəm ki, müstəqil Azərbaycanda təhsil quruculuğu və islahatlarının memarı və qurucusu ümummilli lider Heydər Əliyevdir. Onun rəhbərliyi ilə hazırlanan, təsdiq olunaraq həyata vəsiqə alan və icrası bu gün də uğurla davam etdirilən “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” nın ideya-nəzəri əsaslarını, təhsil islahatları konsepsiyasının və təhsil quruculuğu strategiyasının prioritet istiqamətlərini böyük öndərin irəli sürdüyü fikir və müddəalar təşkil edir.

Əsası ümummilli liderr Heydər Əliyev tərəfindən qoyulan təhsil quruculuğu strategiyası hazırda Prezident İlham Əliyev tərəfindən ölkəmizin davamlı sosial-iqtisadi inkişafı strategiyası çərçivəsində uğurla davam və inkişaf etdirilməkdədir. Son illərdə Prezident İlham Əliyevin təhsil sisteminə qayğı və diqqəti sayəsində əsaslı nailiyyətlər qazanılmış, Azərbaycan təhsilinin aydın sabahını təmin edəcək çoxsaylı İnkişaf Proqramları təsdiq olunaraq onların icrasına başalanılmış, milli təhsilimizin davamlı inkişafına yönələn silsilə tədbirlər görülmüşdür.

"Azərbaycanın gələcək inkişafı məhz təhsillə bağlıdır" deyən möhtərəm Prezidentimiz İlham Əliyevin qayğı və himayəsi altında təhsilin məzmunca yeniləşdirilməsi, ümumi təhsilin milli kurrikulumunun hazırlanması və təsdiq olunması, yeni proqram və dərsliklərin hazırlanması, nəşri, təhsil müəssisələrinin maddi–texniki və tədris-metodiki bazasının möhkəmləndirilməsi, tədris müəssisələrinin müasir informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsi, təhsildə beynəlxalq əlaqələrinin genişləndirilməsi, təhsil sistemində məqsədli İnkişaf Proqramlarının həyata keçirilməsi yolu ilə təhsilin keyfiyyətinin yüksəldilməsi və s. Bu kimi prioritet istiqamətlər üstünlük təhsil etmişdir.

Ümummilli lider Heydər Əliyevin haqq dünyasına qovuşmasından 10 il keçsə də, o, hər zaman bizimlədir, ulu öndərin ölməz ideyaları daim yaşayır və qalib gəlir. Azərbaycanın dünəni də, bu günü də, sabahı da bu böyük İNSANın adı və əbədiyaşar əməlləri ilə bağlıdır.

Həyatımızın elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev dühası, Heydər Əliyev qayğısı, Heydər Əliyev yanğısı silinməz izlər qoymasın, Heydər Əliyev nurundan, işığından ora pay düşməsin. Əslində Heydər Əliyevin varlığı Azərbaycan üçün taleyin Tanrı payı idi...

İstifadə edilmiş ədəbiyyat:

1. Prezident 93-97-Bakı "West Print Digital Center" nəşriyyatı,1998.

2. "Azərbaycan müəllimi" qəzeti-10 iyun 2011-ci il.

3. "Azərbaycan müəllimi" qəzeti-25 yanvar 2013-cü il...

**Sevinc Rəsul qızı Abbasova,**

Göygöl şəhər İ.Hüseynov adına 1 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi

# ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEV İDEYALARININ ŞAGİRDLƏRİN VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏ OLUNMASINDA ROLU

*"Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir"*

**Heydər Əliyev**

Biz XXI əsrin vətəndaşıyıq. Bu gün doğulan, dünyaya gələn uşaqlar, millətimizin gələcəyidir. Onların təlim-tərbiyəsinə, sağlamlığına düzgün münasibət bəşəriyyətin parlaq gələcəyinin təminatıdır. XXI əsrdə yaşayacaq nəsillərin təlim-tərbiyəsinin, sağlamlığının, xoşbəxt həyatının təməli bu günümüzdən başlayır. Məktəb şagirdləri dərin və hərtərəfli biliklərlə təmin etməli, onlarda bilik, bacarıq və vərdişlər formalaşdırmalı, yüksək mədəniyyətə, mütərəqqi dünyagörüşə malik olan şəxsiyyət yetişdirməlidir. Uşaqların vətənpərvərlik tərbiyəsi ailədə, tərbiyə müəssisələrində və orta ümumtəhsil məktəbində uşaq və yeniyetmələrə verilən vahid tərbiyə işinin vacib tərkib hissəsidir.

Vətəndaş tərbiyə etmək mənsub olduğu dövlətin inkişafına çalışan, mənafeyini gözləyən, onun təhlükəsizliyi üçün məsuliyyət daşıyan, dövlətin cari və perspektiv işlərində iştirak edən insan yetişdirmək deməkdir. İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Vətənpərvərlik həm də Vətənin naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Vətənə məhəbbət hissi gənclərin dövlət dilinə, milli musiqiyə, folklora, mənsub olduğu dini dəyərlərə, tarixi ənənələrə bağlılığında, ölkə ərazisinin bütövlüyünün qorunmasına hazır olduğunu əməli işlə sübut etməlidir. Vətənin tərəqqisi naminə çalışmaq üçün gənclər müəyyən sənətə, peşəyə sahib olmalıdır Onlar dövlət quruculuğunda fəal iştirak etməklə elmə yiyələnməli, geniş dünyagörüşə malik olmalı, əməyi sevməli, Vətənin maddi və mənəvi sərvətlərini qorumaq, iqtisadi qüdrətinin yüksəlməsinə nail olmaq, baş verə biləcək iğtişaşlara, təxribatlara və təbii fəlakətlərə qarşı həmişə mübarizəyə hazır olmalıdır.

Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, biz müəllimlərin ən vacib vəzifələrindən olub. Tərbiyənin əsas məqsədi kamil

şəxsiyyət-insan-vətəndaş yetişdirməkdir. Vətəndaş tərbiyə etmək mənsub olduğu dövlətin inkişafına çalışan, mənafeyini gözləyən, onun təhlükəsizliyi üçün məsuliyyət daşıyan, dövlətin cari və perspektiv işlərində iştirak edən insan yetişdirmək deməkdir.

İnsan fərd kimi doğulub, vətəndaş kimi fəaliyyət göstərərək tərbiyə-təhsil prosesində, əmək prosesində vətəndaş hazırlığı keçir. Əsl vətəndaş dedikdə, bilavasitə vətənə, dövlətə gərəkli fəaliyyəti ilə xidmət edən, böyük mənəvi keyfiyyətlərə malik olan insan nəzərdə tutulur.

Ulu öndərimiz, Ümummilli Liderimiz Heydər Əliyev məhz buna görə də vətənpərvərlik tərbiyəsinə, uşaq və gənclərin vətənpərvər ruhda böyüməsinə xüsusi əhəmiyyət verir və bunu çıxışlarında dönə-dönə biz müəllimlərə tövsiyə edirdi. Təhsil işçiləri ilə görüşlərinin birində böyük öndər demişdir:

"Bizim gənclər, təhsil alan nəslimiz gərək məktəblərdə ilk addımlarından vətənpərvərlik əhvali-ruhiyyəsi ilə tərbiyə olunsun. Bütün dərslər, xüsusən də humanitar fənlər gərək gənclərimizə Vətənə sədaqət, vətənpərvərlik ruhu aşılasın, tərbiyə etsin!"

.Biz müəllimlər öz fəaliyyətimizdə ulu öndərimizin bu tövsiyəsini həmişə diqqət mərkəzində saxlayır və ona əməl etməyə çalışırıq. Vətənə sevgi ailədən, məktəbdən başlayır İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Lakin vətənpərvərlik təkcə Vətəni sevmək

deyildir. Vətənpərvərlik həm də Vətənin naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, biz müəllimlər tərəfindən tədris prosesində daha da möhkəmlənir.

Azərbaycan müəllimi gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və ona həyati əhəmiyyətli məsələ kimi baxmışdır. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Azərbaycan xalqı qəhrəman xalqdır. Və bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirmişdir. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi apardığımız hərbi vətənpərvərlik tərbiyəsi işində ön plana keçməlidir Belə qəhrəmanlardan biri olan məktəbimizin yetirməsi Tofiq Məmmədovdur .Bakı şəhəri Səbail rayonunda yerləşən 239 nömrəli məktəbimiz onun adını daşıyır.Onun keçdiyi qəhrəmanlıq yolu şagirdlərimizə bir örnəkdir. Məktəbimizdə tədris olunan bütün fənlər gənclərdə hərbi-vətənpərvərlik hissləri aşılayır. Məktəbimizdə hər il Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə nəzərdə tutulmuş tarixi günlər, bayramlar, yubileylər

yüksək səviyyədə həyata keçirilir .Umummilli Liderimiz Heydər Əliyevin xatirə gününə həsr edilmiş tədbirlər məktəbimizdə artıq ənənə halını almışdır. Hər il məktəbimizdə Umummilli lider Heydər Əliyevin xatirsəsinə həsr olunmuş tədbirlər şagirdlərin bir şəxsiyyət kimi yetişməsində böyük rol oynayır. Bu ildə Umummilli liderimiz Heydər Əliyevin anadan olmasının 90 illiyinə hazırlaşırıq.

Şagirdlərin bir şəxsiyyət kimi yetişib tərbiyə olunmasında asudə vaxt da böyük rol oynayır

Ümummilli liderimiz Heydər Əliyev göstərirdi ki, “Asudə vaxt problemdir, bunun həll edilməsi ailə və şəxsiyyətin, kollektivin və bütövlükdə cəmiyyətin mənəvi sağlamlığını möhkəmləndirməyə kömək edir”. Bu baxımdan məktəblilərin asudə vaxtının düzgün qurulmasında ,Gənclərin narkomaniyadan, QİÇS-dən və digər zərərli vərdişlərdən qorunması istiqamətində tədbirlər aparmaqla yanaşı, metodik tövsiyə və kitabçalarından, əyani təşviqat vasitələri: plakatlar, bukletlərdən və s istifadə edirik.

Təbiət fənnlərinin tədrisi zamanı şagirdlərə çatdırıram ki, doğma Vətənimiz Azərbaycan Yer kürəsinin yaşayış üçün ən əlverişli coğrafi nöqtələrindən birində yerləşir. Təbii şəraitinə görə də ölkəmiz çox əlverişli olub dağlıq və düzənliklərdən, çöl və meşəliklərdən ibarətdir. Yaşayış üçün əlverişli iqlimə və təbii şəraitə malik olduğundan Azərbaycan ən qədim insan məskənlərinin olduğu ölkə kimi tanınır. Vətənimiz yeraltı və yerüstü sərvətlərlə

zəngindir. Dünyada Azərbaycan öz nefti ilə tanınırÖlkəmiz, onun təbiəti, təsərrüfatı, təbii sərvətləri haqqında olan biliklər şagirdlərdə dərin iftixar hissi yaradır, onlarda vətənpərvərlik hissini daha da gücləndirir. Mən çox vaxt dərsliklərdə verilən həmin mətnlərlə kifayətlənmir, daha geniş məlumatlar əldə edərək şagirdlərə çatdırır, onların özlərini müstəqil çalışmaq, axtarışlar aparmaq yolu ilə belə məlumatlar toplamağa sövq edirəm. Təbii ki, şagirdlərin özlərinin bu istiqamətdə axtarışları onlara daha çox tərbiyəvi təsir göstərir Şagirdlərin iştirakı ilə bir sıra milli və dövlət bayramlarımıza həsr olunmuş tədbirlər keçirirəm. Belə tədbirlər emosional ruhda kökləndiyindən şagirdlərin vətənpərvərlik tərbiyəsinə daha güclü təsir edir. Təcrübəmdən bu qənaətə gəlmişəm ki, göstərilən istiqamətlərdə şagirdlərlə aparılan vətənpərvərlik tərbiyəsi işi onların Vətənə məhəbbət  və sədaqət ruhunda böyümələrinə, xalqımıza xas olan ən yaxşı mənəvi və əxlaqi keyfiyyətlərəyiyələnmələrinə müsbət təsir göstərir.Tədris prosesində şagirdlərdə iqtisadi biliklər üzrə tərbiyə formalaşdırıram.Bu məqsədlə müxtəlif üsullardan və tədbirlərdən istifadə etməklə şagirdlərdə ictimai əmlaka,maddi nemətlərə qayğıkeş münasibət və,ekoloji tərbiyəi nin formalaşdırılması şagirdlərdə ətraf mühitə hörmət ,doğma təbiətə məhəbbət ətraf mühitə  davranış qaydaları haqqında biliklər, təbiətin qorunması təbiət guçələrinin yaradılması təbii ehtiyatlardan səmərəli istifadə  və ətraf mühitin mühafizəsi ətraf mühitin

öyrənilməsinə maraq və meylin inkişaf etdirilməsi dair müxtəlif metodlardan istifadə edirəm. Yanacaq energetika sənayesinə aid olan biliklərin tədrisi zamanı Umummilli liderimiz Heydər Əliyevin xidmətlərinə istinad edərək şagirdlərdə təbii ehtiyatlardan səmərəli istifadə iqtisadi sahədə əldə olunmuş uğurlara əsasən vətəndaşlıq tərbiyəsi formalaşdırıram.Ümummilli liderimiz Azərbaycanın müstəqil dövlət kimi əbədi varlığını təmin etmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanda sosial-iqtisadi və ictimai-siyasi sabitliyi təmin etməklə, hüquqi dövlət quruculuğu istiqamətində mühüm ardıcıl tədbirlər həyata keçirməklə müstəqilliyi qorumağın nümunəsini yaratmışdır.

1994-cü ildə Əsrin müqaviləsinin imzalanması gənc Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyasında, onun tranzit potensialının artmasında mühüm addımdır. Bu müqavilə Şərqlə Qərb arasında əməkdaşlıqda Azərbaycanın regiondakı liderliyini təmin etmişdir. Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin ikinci dövründə yüzlərlə müəssisə bərpa edilmiş, yeni sənaye obyektləri işə salınmışdır.

Qərblə Şərq arasında olduqca əlverişli geosiyasi və strateji mövqeyə malik olan Azərbaycan qədim İpək Yolunun üzərində – dünya nəqliyyat sisteminin kəsişmə nöqtəsində yerləşir və bu olduqca mühüm əhəmiyyətə malikdir. Xalqımızın böyük oğlu Heydər Əliyevin uzaqgörənliklə irəli sürdüyü qədim İpək Yolunun bərpası ideyası, 1993-cü ilin mayında Traseka Proqramının qəbulu

Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinə cəlb edilməsində, nəticə etibarilə, onun iqtisadi potensialının artmasında mühüm rol oynamışdır. 1996-cı ilin dekabrında Azərbaycan, Gürcüstan və Ukrayna dövlət başçıları Avrasiya dəhlizinin yaradılması haqqında saziş imzalamışlar. 1998-ci ilin sentyabrında Bakıda İpək Yolunun bərpası ilə bağlı 33 ölkənin, 13 beynəlxalq təşkilatın iştirakı ilə keçirilən konfrans Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını daha da sürətləndirmiş, onun dinamik və ahəngdar inkişafını təmin etmişdir. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə görüşünün gendişində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstanın Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin ərazilərilə Bakı-Tibilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə" dair saziş imzalamışlar. Eyni zamanda Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə Cümhuriyyəti, Qazaxıstan Respublikası və Amerika Birləşmiş Ştatlarının Prezidentləri bu layihəni dəstəkləyən "İstanbul Bəyannaməsini" imzalamışlar. Bununla da Azərbaycanın uzunmüddətli siyasi, iqtisadi mənafelərinin təmin edilməsi, genişmiqyaslı beynəlxalq əməkdaşlığın həyata keçirilməsi, eyni zamanda regionda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar edilməsi üçün Heydər Əliyev tərəfindən növbəti mühüm addım atılmışdır.

Ulu öndərin əsasını qoyduğu siyasət ölkəmizin iqtisadi inkişafını təmin etmiş, dünya iqtisadiyyatında Azərbaycan modelinin yaranması ilə nəticələnmişdir. Dünyanın aparıcı ölkələrini iqtisadi böhran bürüdüyü, kreditlərin azaldığı, sosial ödənişlərin məhdudlaşdığı bir zamanda Azərbaycanda iqtisadi inkişaf tempi artmaqdadır.

Bu gün gənc nəslin bir vətəndaş kimi düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasətinin prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Mənbələr:**

1. Quliyev Ə.M. Türk oğlu 17-ci... hücuma hazır ol!.- B.: Adiloğlu, 2003.-462
2. Məmmədova Ş. Anaların fəryadı- B.: Gənclik, 2006.-508 s.
3. İmanov V. Hərbi-vətənpərvərlik tərbiyəsi ordumuzun döyüş ruhunu yüksəldir - Xalqqəzeti, 10 yanvar, 2008

**Nübar Məcnun qızı Qayıblı,**

Bakı şəhəri Səbail rayonu T.Məmmədov adına 239 N-li tam orta məktəbin müəllimi

# “HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİL AZƏRBAYCAN”

Həyatda hər şeyi zövqə və imkanlara görə dəyişmək olur, bircə Vətəndən və anadan başqa. Vətəni və ananı seçmirlər. Bunların hər ikisi tale töhfəsidir, alın yazısıdır. Yer üzünün bütün xalqları “Vətən” sözünün müqəddəsliyinə uyğun epitet axtaranda “Ana Vətən” deyiblər. Onlar qoynunda yaşadıqları torpağa “Ana Vətən” deyən elə bil ki, düşünüb – daşınıblar. Başqa cür ola da bilməz. Çünki, Vətən bəşər övladının şan – şərəfi, qeyrəti və namusudur.

Bu gün dünyada elə xalq tapmaq çətindir ki, hansısa mürəkkəb mərhələdə onun taleyində müstəsna rol oynamış sabit və davamlı dövlətçilik ənənələri formalaşdırmış şəxsiyyətləri olmasın. Belə seçilmiş liderlərin mənalı və zəngin həyat səhifələrini vərəqləyərək onların mənsub olduğu xalqların dövlətçilik ənənələri, tarixi inkişaf səviyyəsi barədə də aydın təsəvvür yaranır. Bu nöqteyi nəzərdən Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin yüksək idarəçilik keyfiyyətlərinə malik qurucu, yaradıcı şəxsiyyət olduğu tam təsdiqini tapır. Ulu öndər xalqın ən çətin sınaqlarla üz- üzə qaldığı zamanlarda onun milli kimliyinin ən ali müqəddəs rəmzinə çevrilmiş dövlətçiliyi hər cür qəsdlərdən qorumaqla vətəndaş sülhünü, həmrəyliyini təmin etməklə, ictimai – siyasi

sabitliyin, tərəqqi və inkişafın qarantına çevirməklə bizlərə Azərbaycan adlı qüdrətli bir əsər bəxş etmiş, bununlada çağdaş tariximizdə əbədi yaşarlıq hüququ qazanmışdır.

Heydər baba vicdanında namus, din,
Dosta hörmət, düşmənlərə qəzəb, kin
Atillanın, Teymur Xanın, Babəkin
Qeyrətidir damarında çağlayan
Səni xalqa, xalqı sənə bağlayan.

Bütün dünyada tanınmış siyasətçi və dövlət xadimi Heydər Əliyev haqqında inşa yazmaq o qədər də asan deyil. Bu gün nə qədər ağır olsa da, böyük siyasətçi və dövlət xadimi Heydər Əliyev haqqında keçmiş zamanda danışmaq məcburiyyətindəyik. Bu dahi şəxsiyyətin zəngin həyat yolu, coşqun siyasi və dövlətçilik fəaliyyəti barədə minlərlə görkəmli siyasətçinin dediklərinə nəsə əlavə etmək çətin və məsuliyyəti olduğu qədər də çox şərəflidir. İnanıram ki, Heydər Əliyev haqqında nə qədər yazılsa da azdır. Çünki, Heydər Əliyev dünya miqyaslı dövlət adamı, siyasət nəhəngi idi. O, hamının nümunə götürə biləcəyi tarixi şəxsiyyət idi.

Sən elə bir qüvvəsən
Küləklər neyləyəcək?!
Nə qədər bu millət var,
Nə qədər Azərbaycan
Heydər xalqın deyəcək
Xalq Heydər söyləyəcək!

Müstəqil dövlətin banisi, Qafqazın ən əsas şəxsiyyəti olmağı, xalqın inamını, sevgisini qazanmağı heç kəs bacara bilmir. Bir dövləti dağılmaqdan qurtarmağa, törədilmiş qırğınları bütün çılpaqlığı ilə dünyaya göstərməyə hər insan cəsarət edə bilmir. Amma Heydər Əliyev uzaqgörənliyi, müdrikliyi sayəsində Azərbaycan xalqının rifahı naminə önünə qoyduğu ali məqsədlərə nail oldu. Çox insanlara, əsasən də uzun illər azadlıq arzusuyla yaşayan bir xalqa xəyal kimi görünən müstəqilliyə nail oldu o dahi rəhbər. Heydər Əliyev bu dünyaya qalib gəldi, qalib də getdi. Sanki Heydər Əliyev Müstəqil odlar yurdu adlı vətənpərvərlik, ölkəmiz dastanına qəhrəmanına çevrilmişdir. Bu qəhrəman hər çətinlyə rəğmən Vətənin, xalqının xoşbəxtliyi, gələcəyi naminə hər aşılmaz səddi aşmış, hər keçilməz yolu keçmişdir. Heydər Əliyev təhsilə də diqqətlə yanaşırdı. O, uşaqları vətənini sevməyi və onun çiçəklənməsi üçün tərbiyə edirdi. O, müəllimin, həkimin, sənətkarın dostu idi. Hətta o, qocanın uşağın, böyüyün, kiçiyin dostu idi. Çünki, o hər bir azərbaycanlının rəhbəri idi.

Qocayla qocaydı, uşaqla uşaq.
Hər kəsə diqqətlə asırdı qulaq,
Hamının qəlbində daim qalacaq
Deyərdi millətin başı sağ olsun,
Qoy Heydər babanın ruhu şad olsun.

Heydər Əliyev siyasi fəlsəfəsinin əsas qayəsi oaln müstəqil Azərbaycan quruculuğu onu bütün ömrü boyu düşündürən əsas amal olub.

“Mən azərbaycanlı olmağımla fəxr edirəm” deyən bu böyük azərbaycanlının parlaq ideyaları Azərbaycan dövlətçiliyi üçün daim məşəl kimi yanacaq, hər bir azərbaycanlının qürur yeri, iftixar mənbəyi olacaqdır. Bu gün Azərbaycan xalqı Heydər Əliyev yolu ilə öz uğurlu gələcəyinə doğru inamla irəliləyir. Ümumilli lider Heydər Əliyev Azərbaycanın xalqının tarixinə və taleyinə parlaq və silinməz iz qoymuş, böyük şəxsiyyət, qeyri – adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi düşmüşdür. O, bu gün bütün dünyada XX əsrin yetişdirdiyi ən böyük siyasi xadim, bir sözlə Azərbaycanın simvoludur. Çünki o, özünün müstəqil Azərbaycan düşüncəsini əfsanədən reallığa çevirməyi bacardı. Müdrik bir dahi rəhbər olan Heydər Əliyev Müstəqil Azərbaycan əsərini yaratdı. Vaxtilə memar olmaq istəyən bir insan ən böyük memorial bir əsər yaratdı. Müstəqil Azərbaycan əsəri. O, bu əsərlə xalqın tənəzzülə doğru gedən mədəniyyət xəzinəsinə can verdi. O, belə bir əsər yaratmaqla ölümü öldürdü: Heydər Əliyev. İlham Əliyevin dediyi kimi: “Müstəqil Azərbaycan Respublikası” Heydər Əliyevin şah əsəridir.

Heydər Əliyev şəxsiyyəti hələ axıradək öyrənilməmişdir. Hamımızın sevimlisi, Azərbaycan dahi oğlu Heydər Əliyev zirvələrdə duran bir şəxsiyyətdir. O, Azərbaycanın dahisi olaraq da qalacaqdır. Çünki, dahilər ölmürlər. Nə qədər bəşəriyyət var, Heydər Əliyev var. Heydər Əliyev böyük dağdır. Haradan baxsaq onu görürük.

Tarixi yaşadanlar unudulmaz, ölməzdi,

Heydər neçə samitdə mən – mən deyəni əzdi.
İlham Heydər yolunda əbədidi, dönməzdi.
Qırx milyonluq azərinin şanlı yoludur bu yol,
Əməlləri yaşadan canlı yoldur bu yol.

Böyük lider Heydər Əliyevin o, böyük ömrünün anları nəinki mənim kimi şagirdin bir neçə səhifəlik inşasına, heç kitablara sığan deyil. Gecə - gündüz səndən yazam, bəs deyildir, bəs demərəm, ay baba. Sən hələ də bizimlə yaşayır, ölkəmizi idarə edirsən, rəhbərim. Bu gün mən sevinirəm, səndən yazıram, ay baba. Sənə olan sevgilərimi kağıza köçürürəm.

Əziz babam, əmin ol ki, yerinə layiqli bir insan qoyub getdin. Əziz babam, əmin ol ki, bu gün Müstəqil Azərbaycan İlhamla sabaha doğru inamla addımlayır. Yaşasın Azərbaycan dövlətçiliyinin qoşa qanadı – Heydər Əliyev və İlham Əliyev.

Heydər baba Azərbaycan Respublikasının sönməyən parlaq Günəşidir.

**Leyla Məhərrəm qızı Qasımova,**

Göygöl şəhər İlqar Novruzov adına 4 saylı tam orta məktəbin X sinif şagirdi



# ƏLAVƏLƏR

# RİYAZİYYATIN DİLİ İLƏ

Riyaziyyatçı olduğumdan şəxsiyyətinə hörmət etdiyim, dahı İnsan kimi tanıdığım görkəmli dövlət xadimi Heydər Əliyev haqqında riyaziyyatın dili ilə danışmaq istəyirəm.

Məsələ: Heydər Əlirza oğlu Əliyev iyirminci əsrin birinci yarısının üçüncü onilliyinin birinci yarısında həyat yoldaşı Zərifə xanım Əliyeva ilə eyni ildə mayın 10-da Naxçıvan Muxtar Respublikasında anadan olmuşdur. 2013-ci il 28 apreldə Zərifə xanım Əliyevanın 90 illik yubileyi keçirilmişdir. Görkəmli şəxsiyyətlər neçənci il təvəllüdüdürlər? Tarixı rum rəqəmləri ilə yazın.

Həlli: 1923 = MCMXXIII

Məsələ: 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1% olmuşdursa, özəlləşdirməyə başlayan zaman özəl sektorun ÜDM-də payı təxminən neçə faiz olmuşdur?

Həlli: 100% - 90,1% = 9% ≈ 10%

Cavab: ≈ 10%

Məsələ: Azər 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında imzalanmış "Əsrin müqaviləsi"ni iki gün oxuduqdan sonra müqavilənin 200 səhifəsini oxuduğunu gördü (müqavilə 4 dildə idi). O, ikinci gün birinci gündən 50 səhifə çox oxumuşdursa hər gün neçə səhifə oxumuşdu? 200 səhifə müqavilənin təxminən yarısıdırsa müqavilə neçə səhifədən ibarətdir?

Həlli: I gün — II gün

x — x + 50

x + x + 50 = 200

2x = 200 – 50

2x = 150

x = 150 : 2

x = 75     I gün

II gün x + 50 = 75 + 50 = 125

Cavab: 200 səhifə müqavilənin təxminən yarısıdırsa müqavilə təxminən 400 səhifədən ibarətdir.

Məsələ: Bakı-Tbilisi-Ceyhan boru xətti, Azərbaycan neftinin Xəzər dənizindən Türkiyənin Ceyhan limanına, oradan Aralıq dənizi vasitəsilə Avropa bazarlarına nəqli kəmərdir. Azərbaycandan (443 km), Gürcüstandan (248 km) və Türkiyədən (1076 km) keçir. Boru xəttinin uzunluğu neçə kilometrdir?

Həlli: 443 km + 248 km + 1076 km = 1767 km

Cavab: Boru xəttinin uzunluğu 1767 kilometrdir.

Məsələ: Hal-hazırda Azərbaycanda dəmir yolu üzrə yükdaşımaların həcmi 20 milyon ton təşkil edir. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi istifadəyə verildikdən sonra Azərbaycanda dəmir yolu üzrə yükdaşımaların həcmi 50 milyon tona çatarsa (Bakı-Tbilisi-Qars dəmir yolu 2014-cü ilin birinci rübündə istismara veriləcəkdir), yükdaşımaların həcmi neçə faiz artar?

Həlli: 50000000 – 20000000 = 30000000

30000000/20000000 = 1,5

(1,5 · 100)% = 150%

Cavab: 2014 –cü ildən yükdaşımaların həcminin 150% artması planlaşdırılır.

Azərbaycan Respublikasının Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib və 1920-ci ilin aprel ayınadək dövlət statusuna malik olub. Həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edilib. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Qanun qəbul edərək onu Dövlət bayrağı elan edib.

Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədilə Prezident İlham Əliyev 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət bayrağı gününün təsis edilməsi haqqında" sərəncam imzalamışdır. Bu sərəncamla hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət

Bayrağı Günü kimi qeyd edilir. 2009-cu ilin dekabrın 4-də isə Milli Məclis noyabrın 9-unu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirib. Həmin gün Əmək Məcəlləsinin 105-ci maddəsinə edilən əlavəyə əsasən, bu bayram qeyri-iş günü olan bayramların siyahısına daxil edilib.

Sual: Hal-hazırda müstəqilliyimizin neçə yaşı var? Müstəqilliyin neçənci ilindən bayraq günü bayram kimi qeyd edilir?

Məsələ: Dövlət Bayrağı Meydanında ucaldılmış bayrağın ümumi sahəsi 2450 kvadratmetrdir. Bayrağın eninin uzununa nisbəti 1:2 kimidirsə Dövlət Bayrağı Meydanında ucaldılmış bayrağın eni və uzunu neçə metrdir?

Həlli: En Uzunluq

x 2x

$x \cdot 2x = 2450m^2$

$2x^2 = 2450\ m^2$

$x^2 = 2450\ m^2 : 2$

$x = \sqrt{}1225\ m^2$

x = 35m   en

uzunluq: 2x = 2 · 35m = 70m

Cavab: en 35m, uzunluq 70m – dir.

**Nurlan Quliyeva,**

Göygöl rayon Ə. Məmmədov adına Üçtəpə kənd tam orta məktəbin riyaziyyat və informatika müəllimi, YYSQ İH-nin üzvü

# MİLLİ MƏDƏNİYYƏT TARİXİMİZİN - HEYDƏR ƏLİYEV DÖVRÜNÜN KULTUROLOJİ İNTİBAHI...

Hər bir xalqın tarixində elə maraqlı və mürəkkəb dövrlərə rast gəlinir ki, toplumun o taleyüklü anında güclü şəxsiyyətə, milli liderə, dövlət xadiminə böyük ehtiyac hiss olunur. XX əsrdə də belə idi, indinin özündə də: millətimizin belə bir dövründə - son üç-dörd onilliyin gedişatına nəzər salanda, çağdaş Azərbaycanın inkişafında böyük xidmətləri olan, xalqımızın yaddaşında silinməz iz qoyan, milli dövlətçilik hərəkatının başında duran ümummilli lider, dünya azərbaycanlılarının şəksiz rəhbəri cənab Heydər Əliyevin həyat və fəaliyyəti gözümüzün önünə gəlir.

Günlər keçdikcə, aylar ötdükcə, illər bizdən uzaqlaşdıqca, Heydər Əliyevin millətimizin tarixində necə böyük bir rol oynadığını aydınca görmək mümkündür. Əlbəttə, kiçik bir yazıda Heydər Əliyev dühasının bütün tərəflərini işıqlandırmaq, xalqımızın və dövlətimizin dünya iqtisadi-siyasi sistemində, millətlər ailəsində özünəlayiq yer tutmasındakı roluna güzgü tutmaq qeyri-mümkün olsa da, biz, milli mədəniyyət tariximizdə bu böyük insanın rolunu bir daha yada salmağı, göstərdiyi tarixi xidmətlərin müqabilində yeni nəslin Ulu Öndərə ünvanlanan güclü məhəbbətinə nümunə kimi bu qeydləri qələmə almağa qərar verdik...

Tarixən belə olub, elə indinin özündə də biz müşahidə edirik ki, qlobal və lokallığından asılı olmayaraq, dünyada gedən bütün proseslər müstəqil Azərbaycanımıza da güclü təsir edir. Son iki əsrdə elə bir tarixi hadisə olmayıb ki, dolayısı və birbaşa Azərbaycana təsir etməsin. Beynəlxalq proseslər, fəhlə-kəndli hərəkatları, dövlət müstəqilliyi uğrunda ümummilli qiyamlar, I və II Dünya müharibələri, elmi-texniki inqilab, milli-azadlıq mübarizəsi, maarifçilik və savadsızlığın ləğvi, mədəniyyətin və incəsənətin inkişafı, elmi nailiyyətlər və s. və i.a.

Lakin bu məsələdə bircə mühüm amili unutmaq olmaz: bu hadisələr baş verən zaman ölkəmizin rəhbəriyini kim təmsil edib, başqa sözlə, millətimizin başında duran tarixi şəxsiyyət kim olub. Qlobal olayların Azərbaycana mənfi təsirinin minimuma endirilməsindən tutmuş, ta o cür beynəlxalq proseslərin müsbət təsirlərinin daha da gücləndirilməsinədək bir-birilə sıx əlaqədə olan sistemli ictimai-mədəni, iqtisadi-siyasi gedişlərdə lider şəxsiyyətin rolu həddindən artıq böyükdür...

Bu baxımdan müstəqil Azərbaycan tarixində son yarım əsrdə əhəmiyyətli hadisələrin əsas iştirakçısı kimi böyük bir tarixi şəxsiyyət - Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığı, şəxsiyyət kimi gördüyü tarixi xidmətlər hələ neçə-neçə yüzil tədqiqatçıların, tarixçilərin, alimlərin, siyasətşünasların və kulturoloqların araşdırma predmeti olacaq.

Heydər Əliyevin tarixi missiyasının ən böyük uğuru sayılan müstəqil Azərbaycan dövlətinin get-gedə

güclənməsinin əsas səbəblərini araşdırarkən, ilk öncə yadımıza bu böyük tarixi simanın milli-mənəvi sahədə gördüyü işlərin - elm, təhsil, incəsənət, ədəbiyyat, musiqi, humanitar sahələr, ümumiləşdirsək, mədəniyyətimizin inkişafındakı xidmətlərinin xüsusi dəyəri göz önünə gəlir.
Sözün bütün mənasında bu böyük İnsanın Azərbaycan üçün gördüyü nəhəng işləri sadalamadan, bircə faktla şəxsi qənaətimizi bölüşmək istəyirik. Xalqımızın tarixində iki dahi şəxsiyyətin böyük rolu var: Şah İsmayıl Xətai və Heydər Əliyev. Bütün ömrünü Azərbaycanın milli dövlətçilik təfəkkürünün formalaşmasına sərf etmiş, şüurlu həyatını ictimai-siyasi, iqtisadi-sosial, elmi-mədəni inkişafa əvəzsiz xidmətə həsr etmiş, tariximizdə müstəqil, qüdrətli dövlətin qurucuları, xilaskarları məhz bu iki milli lider olub. Böyük xalqımız bəşəri inkişafın müxtəlif dövrlərində - imperiyalar dəbdə olanda Xətaiyə, demokratik sivil dövlətə ehtiyac duyulanda isə Heydər Əliyevə arxalanıb və dayaq durub. Azərbaycan Respublikasının vətəndaşları və dünyanın hər yerinə səpələnmiş 40 milyondan çox soydaşlarımız Xətaini ehtiramla yad etdikləri kimi, ümummilli liderimiz tək qəbul etdikləri və sevdikləri Heydər Əliyevin siyasi-dövlətçilik kursu ətrafında birləşir, qarşıdakı illərdə də öz sədaqətlərinə sadiqliyini sübut etmək əzmindədirlər...
Tariximizin dönüş nöqtəsində ölkəmizin başında duran bu güclü liderin - Heydər Əliyevin intellektual siyasi-fəlsəfi dövlətçilik məktəbi yaranmışdır ki, onun da

davamçıları artıq yetişməkdədir. Amma biz reallıqdan çıxış edərək, təkrarən Heydər Əliyev şəxsiyyəti üzərində durmağı qərara aldıq.
Biz yeni yaradıcı nəsil dövlətin və ölkənin müxtəlif sahələrini, o cümlədən mədəniyyət və ədəbiyyat sahəsini əhatə edən və onun güclü, dayanıqlı inkişafına təkan verən Heydər Əliyev intellektual siyasi-fəlsəfi dövlətçilik məktəbinin iki böyük hissədən ibarət olduğunu qəbul edirik: peşəkarlar və intellektuallar. Birincilər, yəni peşəkarlar hal-hazırkı hakimiyyətin bütün qollarında, xüsusən də qanunvericilik və məhkəmə qollarında təmsil olunaraq, Heydər Əliyevin siyasi kursuna sadiq qalaraq dövlət müstəqilliyimizi qoruyub möhkəmləndirirlər. İntellektuallar isə Heydər Əliyevin ideyaları ilə - başda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev olmaqla - icra orqanlarında, elmi, iqtisadi, ictimai və mədəniyyət sahələrində çoxluq təşkil edir, habelə beynəlxalq münasibətlərdə yeni dövlət quruculuğu istiqamətində böyük işlər görürlər. Mədəniyyət və ədəbiyyat sahəsində peşəkarların sırasında daha çox yaşlı və orta nəsil sənətkarlarını görürüksə, yeni yaradıcı gəncləri intellektualların siyahısına aid etmək mümkündür.
Məlum olduğu kimi, mədəniyyət deyəndə, gözümüzün qabağına ilk öncə ədəbiyyat və incəsənət gəlir durur. Mədəniyyətimiz tarixində ən mürəkkəb, eyni zamanda güclü proseslər daha çox söz sənətimizdə baş verib. Bu baxımdan son yarım əsrin ədəbi-mədəni olaylarına nəzər salmadan yeni mədəniyyət quruculuğu siyasətini

inkişaf etdirmək, dünyaya tanıtmaq qeyri-mümkündür. XX əsrin müəyyən dövründə - 1960-cı ildən ta ötən yüzilliyin 90-cı ilinə kimi, yəni dövlət müstəqilliyimizi ikinci dəfə bərpa etdiyimiz vaxta qədər Azərbaycan ədəbiyyatı adlanan kulturoloji məkana qədəm basmış böyük bir ədəbi nəslin söz sənətimizin inkişafında əhəmiyyətli rolu oldu.

Ədəbi-mədəni ictimaiyyətin yaşlı nümayəndələri yəqin yaxşı xatırlayır: vaxtilə SSRİ adlanan nəhəng bir dövlətin içində Azərbaycanı əriyib itməkdən qoruyan şəxs məhz Heydər Əliyev idi. Bir qədər tarixə diqqətlə nəzər salaq: respublikamızda baş verən irili-xırdalı bütün hadisələr mərkəzdən - Moskvadan idarə edildiyinə görə, yerlərdə, o cümlədən Azərbaycanda, yuxarıdan gələn göstəriş və təlimatlar əsas götürülsə də, müstəqil, əgər belə ifadə etmək mümkündürsə, fəaliyyət planı hazırlanır, böyük şövqlə həyata keçirilirdi. 1970-ci ildə SSRİ-yə rəhbərlik edən L.Brejnev sələfləri olaraq ölkədə intellektualların arasında özünə dayaq kimi yeni elitar elmi-yaradıcı qüvvələri meydana gətirməyə çalışırdı. Bu da faktdır ki, İ.V.Stalinin ölümündən və N.Xruşşovun Sov.İKP-nin qurultayındakı məşhur tarixi çıxışından sonra yaranmış mülayim siyası-ideoloji mühitin təsirindən, ən çox isə lazımi elitar təbəqə yaratmaq məqsədilə - əlbəttə, burada zaman, inkişaf amillərini də nəzərdən qaçırmaq məntiqsiz görünərdi - seçilmiş yeni ədəbi (intellektuallar, siyasətçilər, elmi elita və s.) nəsil həddən artıq müstəqil, azad fikirliliyi ilə seçildiyinə görə, həmçinin dünyanın, zəmanənin

gedişatının istiqamətinin dəyişdiyi bir vaxtda hadisələrə münasibət də başqalaşırdı. L.Brejnev rejimi əvvəlki nəsli Sibirə göndərə bilməsə də, ölkədən uzaqlaşdırdı, - dissidentlik hərəkatını yada salaq - bəzilərini həbs etdirdi, bir çoxlarını isə dəlixanaya yolladırdı. Lakin obyektivlik xatirinə vurğulamaq yerinə düşər: respublikamızın o dövrkü rəhbərlərinin, - onların sırasında yazıçıların sayı hiss ediləcək dərəcədə çox idi - səyi nəticəsində, xüsusən də onlara başçılıq edən Heydər Əliyev böyük çəinliklə də olsa, bu dəhşətli hadisələrin qarşısını ala bildi: Azərbaycanda bircə nəfər də olsun yaradıcı insanın nəinki həbsinə, hətta haqsız incidilməsinə imkan vermədi...

1976-cı ildə Sov.İKP MK-nın istedadlı gənc yazarlara qayğı ilə bağlı xüsusi qərarını əsas götürərən H.Əliyev öz təşəbbüsü ilə Azərbaycan Yazıçılar İttifaqı və Respublika Lenin Komsomolu Gənclər İttifaqının Mərkəzi Komitəsinin yaradıcı cavanları üzə çıxarmaq üçün müştərək müsabiqəsini təşkil etməklə yeni nəsil yaradıcı sənətkarların meydana çıxmasına şərait yaratdı.

“Ədəbiyyatın dövranı bitdi,” - deyənlərə tutarlı cavab: ölkə jurnalistlərinin birinci qurultayında yaradılmış Mətbuat Şurasına ictimaiyyətin nümayəndələri tərəfindən Anar, Ramiz Rövşən, Vaqif Səmədoğlu, Cahangir Məmmədli (tənqidçi-publisist), Hacı Sabir (deyilənlərə görə, o da şer yazır), Nizami Cəfərov, Rafael Hüseynov üzv seçildilər. Onlar Heydər Əliyev məktəbinin layiqli davamçıları sayılırlar.

Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən dövlət müstəqilliyimiz üçün ciddi işlər görən Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq qəbul edilən o dövrkü konstitusiyamızda dövlət dili kimi məhz Azərbaycan dili qeyd olundu. Heydər Əliyev tariximizdə yalnız bu faktla da öz adını qızıl hərflərlə həkk etmişdir. Məhz Heydər Əliyevin tapşırığı ilə respublikamızda mədəniyyət, ədəbiyyat və incəsənətlə bağlı çoxlu sayda yaradıcı birliklər yaradılmış, mədəniyyət ocaqları inşa edilmiş, ədəbi-mədəni qəzet, dərgi və jurnallar nəşr olunmağa başlamışdır ki, o işlər indi də davam etdirilir. İkinci dəvə ölkəyə rəhbərlik etməyə başlayan kimi Heydər Əliyevin ilk qərarlarından biri də mədəniyyət və ədəbiyyatla bağlı oldu. Onun təşəbbüsü ilə yaradıcı birliklər və onların ədəbi-mədəni orqanları birbaşa dövlət büdcəsindən maliyyələşdirilməyə başlandı. Heydər Əliyevin təşəbbüsü ilə başlanan və indi də müxtəlif nəsil mədəniyyət və ədəbiyyat adamlarına Prezidet təqaüdləri ayrılır. Ədəbi-mədəni hadisələrin təşkili üçün iri dövlət vəsaitləri ayrılmağa başlandı...

Azərbaycan mədəniyyətinin çox mühüm hissəsi sayılan çağdaş ədəbiyyatımızda baş verən ədəbi-mədəni hadisələr - kulturoloji proseslər milli söz sənətimizin tarixində hələ öz təkanverici gücünü göstərməsə də, şühbəsiz, XXI əsrin qarşıdakı ilk on ilində böyük sənət bəhrəsini verəcəkdir. Bu baxımdan çağdaş ədəbi prosesdə, ümumən isə milli mədəniyyətimizdə baş verən müxtəlif olaylara nəzər salmaqla, onların lokal - yerli səciyyəli, yoxsa qlobal - dünya əhəmiyyətli

kulturoloji hadisələr olduğunu təyin və təhlil etmək, yeni tariximizin tələblərinə uyğun dəyərlərin, meyarların müəyyənləşdirilməsi biz tədqiqatçı-kulturoloqların çox ciddi, vacib, bu gün qarşıda duran əsas vəzifələrindəndir.

Son on ildə baş verən ədəbi-mədəni olaylara qiymət vermək, əsas hadisələri müəyyənləşdirmək nə qədər çətin olsa da, onun vaxtı artıq çoxdan gəlib çatıb. Mülahizələrimizdə obyektiv nəticələr əldə etmək üçün son illərdə respublikamızda, eyni zamanda yaxın və uzaq ölkələrdə - dünyada baş verən bir çox ictimai-siyasi, ədəbi-mədəni prosesləri xatırlamaq mütləq vacibdir. Lakin tarixə də nəzər salmaq gərəyimiz olacaq...

Artıq on beş ilə yaxındır ki, nəhəng Sovet imperiyasından qurtularaq müstəqil ölkənin azad vətəndaşları kimi hər cür senzor, total dövlət nəzarəti, ideoloji qadağalardan uzaq bir cəmiyyətdə yaşayırıq. Mədəniyyətimizin böyük dostu və hamisi sayılan Heydər Əliyevin rəhbərliyi ilə respublikamızda sivil dəyərləri əsas götürən azad vətəndaş cəmiyyəti - demokratik dövlət quruculuğu prosesi başlanıb və günü-gündən genişlənir.

Siyasət, iqtisadiyyat, biznes və başqa sahələrdə aparılan islahatlarla yanaşı, mənəviyyat, mədəniyyət, incəsənət və ədəbiyyatla da bağlı respublikamızda böyük işlər görülür. Ölkə başçısının birbaşa təşəbbüsüylə mədəniyyət, nəşriyyat, muzeylər, kitabxana işi, ana dilimiz və KİV-ə dair qəbul edilən çoxsaylı yeni

qanunları, qərar və sərəncamları xatırlamaq yerinə düşərdi ki, dediklərimiz əsaslansın.
Hələ ötən əsrin sonlarında Heydər Əliyevin Azərbaycan ədəbiyyatının korifeyi sayılan Məhəmməd Füzulinin, möhtəşəm "Kitabi-Dədə Qorqud" abidəsinin, həmçinin elm, mədəniyyət, ədəbiyyat xadimlərinin yubileylərinin, daha başqa ədəbi-mədəni hadisələrin respublika miqyasında, böyük əksəriyyətinin isə beynəlxalq səviyyədə təşkili ilə bağlı imzaladığı fərman və sərəncamlar, keçirilən tədbirlər, peşəkar yaradıcı təşkilatların, o cümlədən Azərbaycan Yazıçılar Birliyi, həmçinin onun dörd ədəbi dərgisi - "Azərbaycan", "Ulduz", "Qobustan", "Literaturnıy Azerbaydjan" kimi jurnalların, "Ədəbiyyat qəzeti"nin, habelə "Göyərçin", "Günəş" və uşaqlara ünvanlanan başqa nəşrlərin dövlət büdcəsindən maliyyələşdirilməsi, klassik ədəbiyyat abidələrinin dövlət tərəfindən nəşri, daha neçə-neçə dəyərli faktlar ölkədə mədəniyyətimizə - mənəvi-mədəni irsimizə, tariximizə, söz sənətimizə verilən qiymətə, xüsusi diqqətə nümunə kimi göstərilə bilər.
Əlbəttə, qloballaşmağa doğru sürət götürmüş müasir dünyada baş verən böyük olaylar, xüsusən də mədəniyyətlərin inteqrasiyası pərdəsi arxasında intellekt və milli dünyagörüşlərin yarışı, bəlkə də savaşı zamanı zəif mədəniyyətə və ədəbiyyata malik xalqların yeri son sıradadır. Heydər Əliyevin uzaqgörən intuisiyası ilə hələ XX əsrin ikinci yarısından xalqımızı bu böyük yarışa layiqli hazırlamağa başlamışdı. Yaxın keçmişə boylansaq görərik ki, hələ Sovetlər Birliyi tərkibində olanda

Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə ciddi dövlət mədəniyyət siyasəti aparılırdı. Ötən əsrin 60-70-80-ci illərində çoxlu mədəni-kütləvi obyektlər, mədəniyyət sarayları tikilir, istər respublika daxilində, istərsə də ittifaq mərkəzində yerləşən ali təhsil ocaqlarında çoxlu istedadlı, intellektual mütəxəssislər hazırlanırdı.

Milli mədəniyyətin və ədəbiyyatın, sənətin müxtəlif sahələrinin intibah dövrü sayıla biləcək o illərdə yaranan mədəni-mənəvi irs bu gün də xalqımızın əsl sərvətini təşkil edir. Bu haqda çox, lap çox yazmaq, istənilən sayda sübutlar, dəlillər gətirmək olar, lakin mövzumuz daha bügünkü günlərlə bağlı olduğuna görə mətləbdən uzaqlaşmaq istəmirik.

Yeni dünyada bir sıra dəyərlər dəyişilmiş, dövrün tələblərinə uyğun forma və məzmun rəngarəngliyi meydana çıxmışdır. Məhz bu baxımdan da ölkəmizdə hər sahədə olduğu kimi, dövlətin milli mədəniyyət siyasətində də yeniliklər, qloballaşma dövrünün tələblərinə cavab verən dəyişiklikləri müşahidə etmək mümkündür. Bu mənada ölkəmizdə vüsət tapmış üçüncü - ictimai sektor hərəkatının mədəniyyətimizdə və ədəbiyyatımızda təsirini izləmək mütləq vacibdir...

Vətəndaş cəmiyyətinin ən vacib amillərindən biri də ictimaiyyətin müxtəlif təbəqələrinin öz qarşısına qoyduğu hər hansı mühüm məqsədi həyata keçirməkdən ötrü qeyri-hökumət təşkilatlarında birləşmək hüququnun gerçəkləşdirilməsidir. Bu baxımdan son illər mədəniyyət və ədəbiyyatla bağlı ölkəmizdə yaranmış

QHT-lər - ictimai qurumlar, fondlar, yaradıcı birliklər respublikamızda demokratik dəyərlərin inkişafına xidmət edir. Bizi daha çox milli söz sənətinin problemləri maraqlandırdığına görə, ədəbiyyatyönümlü qurumlar barədə qısaca məlumatları yada salmaq istəyirik.

Keçmiş Sovet İttifaqının süqutu ərəfəsində respublikamızda yeni ədəbi qurumların, qrup və cəmiyyətlərin yaranması prosesi başladı. Həm o zamanlar yaranmış, həm də indi fəaliyyət göstərən və daha çox ədəbiyyatla bağlı qeyri-hökumət təşkilatı hesab olunan qurumları bir neçə yerə bölmək mümkündür:

1) İctimai təşkilat kimi sovet dövründən qalma qurumlar - Azərbaycan Yazıçılar Birliyinin nəzdindəki Ədəbiyyat Fondu, Bədii Ədəbiyyatı Təbliğ Bürosu və rayonlardakı bölmələri ilə birlikdə Azərbaycan Yazıçılar Birliyi;

2) Yenidənqurma illərində yaradılmış, təsərrüfathesablı qurumlar - AYB nəzdindəki Ədəbi Əlaqələr və Tərcümə Mərkəzi, Milli "Pen-klub". Buraya həm də müstəqil kiçik ədəbi qrupları, məsələn, "Baca"nı əlavə etmək olar;

3) Dövlət müstəqilliyi əldə ediləndən bu yana yaradılmış qurumlar - mövcud qanunvericiliyə əsasən, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən rəsmi qeydiyyata alınmış Yeni Yazarlar və Sənətçilər Qurumu, Dünya Gənc Türk Yazarlar Birliyi, qeydiyyatsız fəaliyyət göstərən "Şam" Ədəbi Məclisi, "Pərvanə" Ədəbi Məclisi, Azad Yazarlar Ocağı, "Ədəbi Klub", "Avanqard" Ədəbi Birliyi, Azərbaycan Mədəniyyət Fondunun nəzdindəki məclis, "Eqo"

Yaradıcı Ordeni, “Azad qələm”, “İti qələm” kimi tanınan ictimai təşkilatlar, habelə paytaxtda və bölgələrdə fəaliyyətini bərpa etmiş, tarixini XIX-XX əsrlərdən götürən, həmçinin yenicə yaradılmış ədəbi qruplar (“Gənclər Pen-klubu”, “YeniSİ”, “Nəfəs”, “Nöqtələr”, “Pöhrə”, “Sözbəsöz”, “Xatun”, “Sabir ocağı”, “Odlar Yurdu”, “3-cü ədəbi hərəkat”, “Oxu” Yazarlar Evi və b.) daxildir.

Statistik faktları xatırlamaqda məqsədimiz çağdaş ədəbi prosesdə ictimai qurumların rolunun zəif və güclü olmasını sübut etmək deyil, sadəcə müəyyən təsəvvürlər yaratmaq bu təşkilat və qrupların yeni mədəniyyət quruculuğu və dövlətimizin mədəniyyət siyasətinin gerçəkləşdirilməsi prosesindəki imkanlarını göstərməkdir.

Dövlət tərəfindən böyük maddi və mənəvi dəstək alan Azərbaycan Yazıçılar Birliyi və bu təşkilatla bağlı qurumlar öz imkanlarından lazımi səviyyədə istifadə edir. AYB-nin ölkəmizin ədəbi-mədəni həyatındakı rolu danılmazdır. Milli “Pen-klub”, yaxud başqa köhnə qurumlara rəğmən, AYB-nin fəaliyyətini qiymətləndirmək vacibdir: ən azı ona görə ki, milli-mənəvi irsimizin, ana dilimizin və ədəbiyyatımızın qorunmasında bu mötəbər yaradıcı birliyin zəhməti çox böyükdür. Lakin hər hansı bir sərvəti qorumaqla yanaşı, onu həm də inkişaf etdirmək, gələcək nəslə bütöv halda çatdırmaq lazımdır. Konservatorluğu ilə ad çıxarmış AYB-nin öz fəaliyyətini zəmanənin tələbinə uyğun

qurması çox vacib və milli əhəmiyyətli işdir və Birlik mütləq buna getməlidir.

Məlumdur ki, QHT-lər qarşılarına qoyduqları məqsədləri həyata keçirmək üçün müəyyən maddi vəsaitə malik olmalıdırlar. Bu qurumlarda birləşən üzvlərin üzvlük haqlarından, yaxud da daxili və xarici maliyyə qurumlarının ayırdığı qrantlar hesabına əldə edilən vəsaitlə müəyyən proqramları həyata keçirmək mümkündür. Təəssüflər olsun ki, ölkədəki iqtisadi-sosial şəraitin çətinliyi yaradıcı insanlardan da yan keçməyib və onların hansısa ictimai quruma üzvlük haqqı ödəmək imkanı, sadəcə, məhduddur. Daxili donorların yoxluğu, xarici xeyriyyə təşkilatlarının milli mədəniyyətə, xüsusən də ədəbiyyata soyuq münasibəti ədəbiyyatyönümlü qurumlara imkan vermir ki, qarşılarına qoyduqları məqsədlər uğrunda işlər görsünlər. Bütün bunlara baxmayaraq bu qurumlar bir çox qiymətli işlər də görürlər.

Nisbətən yeni dövrdə - 1993-cü ildə əsası indiki Bakı Dövlət Universitetində "Gənclər Pen-klubu" kimi qoyulmuş, daha sonralar sıraları genişləndirilərək Yeni Yazarlar və Sənətçilər Qurumu kimi tanınan təşkilat əgər qlobal mədəniyyət hadisələrinin ölkəmizdə təşkili, yaradıcı gənc nəslin intellektual və sənət hüquqlarını qorumaq, onların yaradıcılığını təbliğ etmək və tanıtmaqla məşğuldursa, Dünya Gənc Türk Yazarlar Birliyi Türk Dünyasında yazıb-yaradan cavan qələm sahiblərini birləşdirir...

Daha çox sənət məsələləri ilə məşğul olan "Avanqard" Ədəbi Birliyi ədəbiyyatda modernizm hərəkatının, Azad Yazarlar Ocağı söz sənətində postmodernizm cərəyanının, "YeniSİ" şəbəkə ədəbiyyatının problemləri ilə maraqlanır...

Bütün bunların isə öz növbəsində ədəbi prosesin canlanmasına, inkişafına və yeni-yeni sənət uğurlarının əldə edilməsinə ünvanlanması şühbəsizdir. Milli ədəbi prosesimizdə baş verən bu mürəkkəb sənət olayları isə bizdə inam yaradır ki, yaxın gələcəkdə Azərbaycan ədəbiyyatı nəinki Şərqdə, həm də Qərbdə rəqabətə davamlı bir mədəniyyət faktoruna çevriləcək.

Ədəbiyyatımız inkişafdan uğurlara doğru getməklə dövlət başçımızın apardığı müstəqil, demokratik quruculuq prosesinə öz töhfələrini verir. Bu işdə gənclərin rolu daha böyükdür. Çağdaş milli mədəniyyətimizin inkişafında və cəmiyyətin mənəvi təkamülündə yeni yaradıcı nəsilin rolu əvəzolunmazdır.

Qeyd etdiyimiz kimi, Azərbaycan dövlət müstəqilliyini təkrarən bərqərar edəndən sonra hər bir sahədə olduğu kimi, milli mədəniyyətimizdə, o cümlədən onun ayrılmaz qolu sayılan ədəbiyyatımızda çox maraqlı proseslər baş verir. Yaşı minillərlə ölçülən, Azərbaycan mədəniyyətinin çox mühüm hissəsi sayılan çağdaş ədəbiyyatımızda baş verən ədəbi-mədəni hadisələr - kulturoloji proseslər milli söz sənətimizin tarixində hələ öz təkanverici gücünü göstərməsə də, heç şübhəsiz, XXI əsrin qarşıdakı birinci yarısında, bəlkə də ilk on ilində ciddi sənət bəhrəsini verəcəkdir. Bu baxımdan

çağdaş ədəbi prosesdə, ümumən isə milli mədəniyyətimizdə baş verən müxtəlif olaylara nəzər salanda, onların lokal - yerli səciyyəli, yoxsa qlobal - dünya əhəmiyyətli kulturoloji hadisələr olduğunu təyin və təhlil etmək, yeni tariximizin tələblərinə uyğun dəyərlərin, meyarların müəyyənləşdirilməsi çox vacibdir və tədqiqatçıların - kulturoloqların bu gün qarşılarında duran çox ciddi, əsas vəzifələrdəndir.

Son on-on beş ildə baş verən ədəbi-mədəni olaylara qiymət vermək, əsas hadisələri müəyyənləşdirmək nə qədər çətin olsa da, onun vaxtı artıq çoxdan gəlib çatıb. Mülahizələrimizdə obyektiv nəticələr əldə etmək üçün son illərdə respublikamızda, eyni zamanda yaxın və uzaq ölkələrdə - dünyada baş verən bir çox ictimai-siyasi, ədəbi-mədəni prosesləri xatırlamaq mütləq vacibdir. Lakin tarixə də nəzər salmaq lazım gəlir. Artıq on beş ildən çoxdur ki, nəhəng Sovet imperiyasından qurtularaq müstəqil ölkənin azad vətəndaşları kimi hər cür senzor, total dövlət nəzarəti, ideoloji qadağalardan uzaq bir cəmiyyətdə yaşayırıq.

Qloballaşmağa doğru sürət götürmüş müasir dünyada baş verən böyük olaylar, xüsusən də mədəniyyətlərin inteqrasiyası pərdəsi arxasında intellekt və milli dünyagörüş sistemlərinin yarışı - bəlkə də daha dəqiq desək, savaşı zamanı zəif mədəniyyətə və ədəbiyyata malik xalqların yeri son sıradadır. Yeni dünya düzəmində bir sıra dəyərlər dəyişilmiş, dövrün tələblərinə uyğun forma və məzmun rəngarəngliyi meydana çıxmışdır. Məhz bu baxımından da ölkəmizdə

hər sahədə olduğu kimi, qloballaşma dövrünün tələblərinə cavab verən dövlətin milli mədəniyyət siyasətində yeniliklər, yeni dövrün tələblərinə uyğun dəyişiklikləri müşahidə etmək mümkündür. Bu mənada ölkəmizdə vüsət tapmış üçüncü - ictimai sektor hərəkatının mədəniyyətimiz və ədəbiyyatımızda təsirini izləmək mütləq vacibdir. Vətəndaş cəmiyyətinin ən vacib amillərindən biri də ictimaiyyətin müxtəlif təbəqələrinin öz qarşısına qoyduğu hər hansı bir mühüm məqsədi həyata keçirməkdən ötrü ictimai qurumlarda - Qeyri-Hökumət Təşkilatlarında birləşmək hüququnun gerçəkləşdirilməsidir. Son illər mədəniyyət və ədəbiyyatla bağlı ölkəmizdə yaranmış və sıralarında əsasən gəncləri birləşdirən QHT-lərin - ictimai qurumların, fondların, yaradıcı birliklərin respublikamızda bərqərar olan demokratik dəyərlərin inkişafında xüsusi xidmətləri var. Gənclər dünyada qəbul olunmuş sivil və intellektual formalardan, metodlardan bəhrələnərək, milli söz sənətimizin müxtəlif problemlərini araşdırır, çağdaş ədəbiyyatımızın, mədəniyyətimizin, o cümlədən cəmiyyətimizin mənəvi inkişafına yardımçı olurlar.

Bizi daha çox milli söz sənətimizin çağdaş durumu, problemləri maraqlandırdığına görə, əsas mətləbə keçmək istəyirik. Müstəqillik dövründə yeni nəsil Azərbaycan yazarı dünya ilə birbaşa tanışlıq və qarşılıqlı münasibətlər imkanı qazansa da, təəssüflər olsun ki, müəyyən obyektiv problemlər bu vacib amili ədəbiyyatımızın inkişafına tərəf ləng istiqamətləndirir.

Qarabağ münaqişəsi, uzdəniraq qonşularımız tərəfindən Qərb aləmində ölkəmizin nüfuzuna xələl gətirilməsi, dil, tərcümə, nəşr, yayım, İnternetdən yararlanmaq və buna oxşar, bu qəbil maddi-texnoloji çətinliklər...

Onu da bilməliyik ki, çağdaş milli ədəbiyyatlar - qlobal dünya söz sənətinin tərkib hissəsi olduğundan - planetimizdə baş verən bütün olayların təsirinə tez məruz qalır. Əgər yaradıcı insanlar dünya ilə qarşılıqlı münasibətlərdən təcrid olunublarsa, deməli, ədəbiyyatımızın inkişafında da müəyyən geriləmələr mövcuddur. Nəzərə almaq lazımdır ki, milli ədəbiyyatların çağdaş durumunu qiymətləndirməkdən ötrü mütləq əlavə böyük müqayisə obyekti olmalıdır. Başqa sözlə, dünyanın aparıcı ölkələrində baş verən ədəbi-mədəni proseslərinin nəticələri ilə tanış olmalıyıq ki, öz söz sənətimizin vəziyyətini lazımınca dəyərləndirək. Milli ədəbiyyatın müəyyən zamanlardakı durumlarına qiymət verəndə, bir neçə cəhəti unutmaq olmaz: söz sənətinin məhəlli deyil, bəşəri bir hadisə olması; ədəbiyyatın gerçək hadisələr, tarixi olaylar və müəyyən məkan çərçivəsində inkişafı; yaradıcı insanın səviyyəsi - intellekti, ictimai-mədəni sifariş; ümumdünya harmoniyasının diqtəsi, tarixin gedişatı və s. və i. a.

Çağdaş ədəbi prosesimizin diqtəsi ilə inkişaf edən milli ədəbiyyatımızın müasir durumu ağır olsa da, ümidverici cəhətlərdən xali deyil. Poeziyamızın səviyyəsindən razı qalmaq mümkünsə, nəsr, dramaturgiya, qarşılıqlı tərcümə, ədəbiyyat fəlsəfəsi - tənqid, ədəbiyyatşünaslıq,

esseistika, ədəbi kulturologiya sahələrində geriləyirik. Yaşlı nəsildən nəyi isə tələb etmək nə qədər məntiqsizdirsə, ədəbi-mədəni ictimaiyyət orta və yeni nəslin nümayəndələrindən çox şey gözləyir. Gənclərin intellektual səviyyəsindən, sənət baxışlarından, dünyagörüşlərindən asılı olaraq milli ədəbiyyatımız, deməli həm də mənəvi inkişafımızın gedişatı zəifləyə və güclənə bilər. Yaradıcı gənclərin özləri də çağdaş dünyanın gedişatına uyğunlaşa, başqa sözlə, zəmanəylə ayaqlaşa bilmirlər. Gənc yazarların mütaliəyə maraqlarının zəifliyi, dünya ədəbiyyatı ilə tanış olmamaları, sənət baxışlarında və ədəbi görüşlərdəki plüralizmə - fikir müxtəlifliyinə yer ayırmamaları, yeni texnoloji imkanlardan lazımınca istifadə edə bilməmələri həm onların özlərinin bir sənətkar kimi respublikamızda və gələcəkdə dünyada tanınmalara mane olur, həm də dolayısı cəmiyyətin mənəvi zənginliyinin qarşısını alır.

Müasir Azərbaycan ədəbiyyatını, xüsusən də onun yaranmaqda olan ən yeni nümunələrini təhlil edəndə hansı amillərə daha çox fikir vermək lazımdır? Subyektiv cəhət kimi müəllifin yaşı, yaxud ədəbi nəsil problemi, obyektiv amil isə yaradıcı şəxsin milli ədəbiyyatımıza gətirdiyi yeni estetik yeniliklər - sənət dəyərləri sistemi və ya orijinal ədəbi cərəyan, qrup məsələsidir ki, bunlara da dəqiq cavab vermək nə qədər çətin olsa da, mümkündür. Təkrarən tarixə qısa bir nəzər salaq: XIX yüzilliyin sonu, XX əsrin əvvəllərində üç istiqamətdə - əsasən Rusiya vasitəsi ilə Avropaya,

Türkiyəylə Qərbə, həmçinin İranın köməyliyilə Şərqə - ümumdünya ədəbiyyatına inteqrasiya edən, forma müxtəlifliyinə, metod rəngarəngliyinə, məzmun dolğunluğuna yiyələnən, dünya kulturoloji olaylarının təsirindən dövrünün çağdaş mədəni dəyərlərinə cavab verən, yüksək estetik tələblərə uyğun, milli ruha malik nümunələri ortaya qoyan milli söz sənətimizin inkişafının qarşısını bir çox ədəbi-fəlsəfi cərəyan, məktəb, həmçinin metodlarla kobudluqla alındı. Rəsmi dairələr - sovet sistemi milli yaradıcı təfəkkürün təbii axarının qarşısına almağa çalışırdı. Lakin dövlət müstəqilliyini bərqərar edəndən bu tərəfə, xüsusən də son illər yenə o kulturoloji rəngarəngliyi müşahidə edirik.

...Dünyada gedən bütün proseslər qlobal hadisələr olduğuna görə, Azərbaycan planetin sivil bir bölgəsi olaraq, o beynəlxalq olaylarda bu və digər formada iştirak etməsə, yaxın gələcəkdə bir millət kimi yer üzündən silinəcəyik. Necə ki, antiterror koalisiyasının fəal bir üzvü kimi ölkəmiz Əfqanıstanda, İraqda bəşəriyyəti böyük bir xəstəlikdən sağaltmaq üçün mübarizə aparır, - Qarabağ münaqişəsinin də yaxın gələcəkdə bizim xeyrimizə həll olunacağına inanmaq istərdik, - eləcə də mədəniyyətdə, ədəbiyyatda gedən ən son kulturoloji proses kimi postmodernizmi öyrənməli, tətbiq etməli, onu dəyərli sənət əsərləri ilə zənginləşdirməliyik.

Belə bir məntiqli sual ortaya çıxa bilər: Azərbaycan ədəbiyyatında postdodernizmə şamil olunan ədəbi-bədii

nümunələr varmı və o əsərlər tədqiqatçıları qane edirmi? Bu suala birmənalı cavab vermək çox çətindir. Bayaq bu problemlə bağlı fikirlərimizi açıqlamağa çalışdıq. Təkcə onu əlavə etmək olar ki, modernizm kimi, postmodernizm də daha çox intellektual prozada öz gücünü göstərə bilir. Umberto Eko, Oktavio Pas, Xaruki Murakami, Riçard Bax, Orxan Pamuk kimi intellektual postmodernistlərin yaradıcılığını yada salmaq kifayətdir ki, dediklərimiz öz məntiqli təsdiqini tapsın. Son vaxtlar bir çox cavan yazıçılar dəbə düşmüş postmodernizm cərəyanından danışanda adlarını sadaladığımız ciddi, tanınmış, dünyaşöhrətli sənətkarları deyil, V.Sorokin, V.Pelevin, E.Limonov tək Qərb əks-təbliğatından güclü təsirlənən, Rusiyanı sevməyən bir sıra ölkələrin ideologiyasına tərəf əyilən ortabab rusiyalı yazıçıları - onların da böyük əksəriyyəti etnik cəhətdən rus millətinə aid deyillər - Azərbaycan oxucusuna tərifləyirlər. Bunun məntiqi nəticəsi isə göz qabağındadır: çağdaş ədəbi prosesə nəzər salanda heç də ürəkaçan mənzərə ilə rastlaşmırıq...

Yeni nəslin atdığı addımları səbirlə izləmək vacibdir. Gəncliyin aşıb-daşan gücü həmişə yeni bir canlanmaya səbəb olur. Əslində, gənclik son dövrlərin ab-havasına uyğun hərəkət edir. XXI əsrin ilk onilliyində də səs-küy yaratmadan özünü sübut və təsdiq etmək çox çətindir: bunu ən azı postmodernizmə istiqamət götürmüş zaman tələb edir. Digər tərəfdən, son zamanlarda cəmiyyətimizdə yaradıcı mühitə qarşı olan nihilist bir diqqətsizliyin axırı da məhz buna gətirib çıxarmalıydı.

Yeni yaradıcı nəsil - gənclik cəmiyyətdə özünə qarşı sayğısızlıq, bir az da tünd desək, ictimai marağın sönüklüyünü görəndə toplumun müqəddəs saydığı ehkamları dağıtmağa meyl edir, lazım gələndə cəmiyyəti söyməkdən belə çəkinmir ki, ictimaiyyətin diqqətini özünə sarı, dolayısı mədəniyyətə, milli sənətə tərəf yönəltsin. Bu mənada son illər baş verən hadisələr anlaşılandır: lakin bütün günahları bir şəxsin, yaxud haçansa cəm halda ictimai-mədəni hadisələrə qoşulmuş böyük bir qrup insanların ayağına yazmaq, yaranmış problemlərə görə yaşlı nəsli təqsirləndirmək düzgün deyil və yolverilməzdir. Ətrafdakı millətlərin, xalqların taleyinə, tarixinə nəzər salanda, görürük ki, onların da başına belə işlər gəlib.
İstər ədəbiyyatda, istərsə də yaradıcı sənətin digər sahələrində gənclərin çəkisi get-gedə artır, onların xidmətləri, verdikləri töhfələr çoxalır. Sırf milli ədəbiyyatdan danışsaq, uğurlarımızla yanaşı, müəyyən geriləmələrin də olduğunu qeyd etmək yerinə düşər: gənclərin irihəcmli nəsr, dram, lirik-epik əsərlər yazmağa, ictimai-mənəvi tələbat duyulan ədəbi nümunələr yaratmağa, habelə milli-vətənpərvərlik mövzusuna meyllərinin az olması yeni yaradıcı nəslin çatışmayan cəhətləri, çağdaş söz sənətimizin qusurları hesab etmək olar. Bu mənada ortaya çıxan problemlərin həllini - ictimai tələb və gənclərin yaradıcılığına dövlət qayğısının daha da artırılması, stimullaşdırıcı yolların arayıb-axtarılması məsələsini də unutmamalıyıq.

Bütün bu sadaladığımız cəhətlərə baxmayaraq, gənclərimizin cəmiyyətin mənəvi inkişafında - milli mədəniyyətimizin və çağdaş ədəbiyyatımızın zənginləşməsində rolu çox böyükdür və yeni yaradıcı nəsil boynuna düşən şərəfli tarixi vəzifəsini layiqincə yerinə yetirməlidir.
Ötən illərin ədəbi hadisələrinə nəzər salanda görürük milli söz sənətimizin ümumi mənzərəsi çox geniş və rəngarəngdir. Bu da onu vurğulamağa imkan verir ki, Azərbaycan mədəniyyəti və ədəbiyyatı hələ uzun müddət dünyanı təəccübləndirəcək.
Məsələn, 2002-ci ildə baş verən ədəbi-mədəni hadisələrə qısaca nəzər salmaq kifayətdir ki, dediklərimizə sübut olsun. İlin ədəbi-mədəni hadisələr bolluğu ilə fərqləndiyini desək, yəqin yanılmaram. İlin əvvəllərində Azərbaycan Yazıçılar Birliyi, Yeni Yazarlar və Sənətçilər Qurumu "Ədəbiyyat qəzeti" və Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutu ilə birgə 2002-ci ilin ədəbi yekunlarına həsr olunmuş geniş müşavirə keçirtdilər və onun materialları Birliyin mətbu orqanında geniş işıqlandırıldı. Nazim Hikmətin geniş yubileyi, Aleksandr Düma, Viktor Hüqo kimi dünya ədəbiyyatının tanınmış simalarına həsr olunmuş tədbirlər, yeni kitabların təqdimatı, yaradıcılıq gecələri, YUNESKO tərəfindən bütün ölkələrdə keçirilən ədəbi-mədəni hadisələrin - Beynəlxalq Ana Dili, Ümumdünya Poeziya, Beynəlxalq Kitab və Müəllif Hüquqları, Dünya Əqli Mülkiyyət günlərinin qeyd edilməsi, daha neçə-neçə respublika əhəmiyyətli mədəni

tədbirlərin təşkili bir daha sübut etdi ki, respublikamızın ədəbi-mədəni həyatı çox maraqlı, həm də yeni dövrün tələblərinə uyğundur...

Bu, xüsusən də gənclərlə bağlı həyata keçirilən müxtəlif proqramlarda özünü daha qabarıq göstərdi: ilin əvvəllərindən etibarən Azərbaycan Yazıçılar Birliyi ölkəmizdə fəaliyyət göstərən Yeni Yazarlar və Sənətçilər Qurumu, Dünya Gənc Türk Yazarlar Birliyi kimi bir sıra yaradıcı qeyri-hökumət təşkilatları ilə birgə istedadlı gənclərin ədəbi-intellektual fəaliyyətini stimullaşdıran, onların müstəqillik dövründən bu yana yaratdıqları ədəbiyyatı təhlil, tənqid və geniş ictimaiyyətin müzakirəsinə təqdim etməkdən ötrü "Yeni ədəbi nəsil: axtarışlar, problemlər" mövzusunda gənc yazarların ilk ümumrespublika toplantısını, onun ardınca da 28 May - Respublika günü münasibətilə gənclərin şeir məclisini təşkil etdi. Toplantının materialları AYB-nin ədəbi-mətbu orqanlarında çıxdı, habelə ayrıca kitab şəklində nəşr olundu: eyni zamanda, yeni ədəbi nəslin bədii əsərlərindən ibarət almanax çapa hazırlanır. Əlavə kimi onu da yada salmaq yerinə düşər ki, bu il milli liderimiz Heydər Əliyevin 80 illik yubileyi ilə bağlı ölkənin mədəniyyət siyasətinin əhəmiyyətli hissəsi sayılan ədəbiyyatla birbaşa məşğul olan dövlət və qeyri-hökumət qurumları - Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutu, Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Azərbaycan Yazıçılar Birliyi, Yeni Yazarlar və Sənətçilər Qurumu, həmçinin dövlət

və özəl ali tədris ocaqlarında böyük elmi-praktiki, ədəbi-mədəni tədbirlər keçirilərək ölkə başçısının böyük tarixi xidmətləri işıqlandırıldı.

Bu illər ərzində polemikalar getdi və bu da ədəbi prosesin canlanmasına, qəzetlərdə yeni-yeni ədəbiyyat əlavələrinin, səhifələrinin meydana çıxmasına səbəb oldu ki, qarşıdakı illərdə daha ciddi sənət əsərlərinin yaranacağına olan inamımızı artırır.

Aparıcı elektron və yazılı KİV-ə nəzər salmaq kifayət edər ki, mədəniyyət, ədəbiyyatla bağlı gedən obyektiv və subyektiv mülahizələrin səviyyəsinin, informasiya həqiqiliyinin və mənfili-müsbətli yükünün ümumi zövqə, ictimai-mədəni fikrə və ədəbi prosesə təsiri barədə düşünəndə bir neçə il bundan əvvəl Heydər Əliyevin milli-mənəvi dəyərlərlə bağlı verdiyi məşhur fərman və sərəncamlarını xatırlamamaq mümkün deyil. Bəs müdrik dövlət başçımızın bu problemə belə diqqət ayırmasına səbəb nə olmuşdur? Məlum olduğu kimi, ictimai fikrin formalaşmasında və cəmiyyətin mənəvi tərbiyyəsində, mədəni zənginləşməsində yazılı və elektron Kütləvi İnformasiya Vasitələrinin böyük rolu danılmazdır. Bu sahədə isə son on ildə müəyyən boşluqlar yaranmışdı. Heydər Əliyev şəxsən özü milli-mənəvi dəyərlərin qorunması ilə bağlı sənədlərin hazırlanmasına və dövlət proqramlarının həyata keçirilməsinə şərait yaratmışdı ki, Azərbaycan Respublikasının indiki Prezidenti cənab İlham Əliyev də o ənənələri uğurla davam etdirir...

Bütün bunlar isə bizə imkan verir ki, etiraf edək: milli mədəniyyət və mənəviyyat tariximizin Heydər Əliyev mərhələsi müstəqil Azərbaycanımızın intibahına təkan verən şanlı səhifələrdir...

Əslində biz tariximizin bu dövrünü Heydər Əliyev İntibahı zamanı da adlandıra bilərik.

Ulu Öndərimizin gördüyü böyük işlər və milli sivilizasiyamızın inkişafındakı əvəzsiz xidmətləri ona imkan verir ki, tariximizin bu dövrünü elə beləcə də adlandıraq: Heydər Əliyev dövrünün İntibahı...

**Aydın XAN (ƏBİLOV),**

Yeni Yazarlar və Sənətçilər Qurumunun sədri,
www.kitabxana.net - Milli Virtual Kitabxananın
rəhbəri, yazıçı-kulturoloq

## MÜNDƏRİCAT

1. MÜSABİQƏNİN ƏSASNAMƏSİ ..................

2. AYDIN XAN ƏBİLOV. Heydər Əliyev: Ruhu - milli varlığımız, Məzarı - and yerimiz... (Ulu öndər haqqında siyasi-kulturoloji elegiya) ...............................

3. NURLAN QULİYEVA. “Heydər Əliyev məktəbi” ...........................................................

4. GÜLŞƏN MUSTAFAYEVA. “Əsr və girovların qaytarılmasında Heydər Əliyevin rolu .

5. MURAZ QULİYEV. “Ümummilli lider Heydər Əliyevin Azərbaycan Gömrüyünün inkişafında rolu........................................................

6. SƏİDƏ MÜRSƏLOVA. “Heydər Əliyev və Azərbaycan dili........................................................

7. SEVİNC ABBASOVA. “Heydər Əliyev məktəbi” ...........................................................

8. NUBAR QAYIBLI. "Ümummilli Liderimiz Heydər Əliyev ideyalarının şagirdlərin

**vətənpərvərlik ruhunda tərbiyə olunmasında rolu"**

**9. LEYLA QASIMOVA. "Heydər Əliyev və Müstəqil Azərbaycan....................................................**

**10. NURLAN QULİYEVA. Rizayiyyatin dili ilə ..**

**11. AYDIN XAN ƏBİLOV. Milli mədəniyyət tariximizin - Heydər Əliyev dövrünün kulturoloji intibahı... .........................................**